# Azərbaycan Respublikasının Təhsil Nazirliyi

# Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı: Kənd Təsərrüfatı

**Nərgiz Salahlı**

**UNEC SABAH**

**Azerbaijan State Economic University**

**MAY 2018**

# Təşəkkürnamə

Ilk öncə diplom işini yazmaqda mənə şərait yaradan və eyni zamanda dəstəyini məndən əsirgəməyən insanlara öz təşəkkürümü bildirmək istərdim. Çünki həmin insanların ətrafımda olmaması mənə bu işi istədiyim kimi yazmamağıma səbəb ola bilərdi.

Əvvəlcə diplom rəhbərim olan Emil Bəşirova Xüsusi təşəkkürlərimi bildirmək istəyirəm. Diplom işinin yazılmasında onun düzgün istiqamətlərinin və həmçinin böyük dəstəyinin əvəzsiz rolu vardır.

Daha sonra bizə səmimi və rəqabətli təhsil mühitini yaratdığına görə Professor Aida xanım Quliyevaya minnətdarlığımı bildirmək istəyirəm.

Və sonda bütün çətinliklərimə baxmayaraq, diplom işinin yazılmasında məni hər zaman dəstəkləyən valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

# Mündəricat


**Mövzunun aktuallığı……………………………………………………..................5**

**Giriş……………………………………………………………………………6**

**1. Fəsil Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun payı və Azərbaycanda qeyri-neft sənayesinin inkişafının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi………………………………………………… .....……..8**

1.1 Azəbaycan iqtisadiyyatının və sənayesinin inkişaf dinamikasının və strukturunun təhlili.................................................................................................8

1.2 Qeyri-neft sənayesinin inkişaf vəziyyətinin qiymətləndirilməsi..........11

1.3 Qeyri-neft sektorunun inkişafı sahəsində problemlər və bunların həlli yolları...........................................................................................................17

**2. Fəsil Dünyada və Azərbaycanda Kənd Təsərrüfatının mövcud vəziyyəti və sosial-iqtisadi qiymətləndirilməsi**...........................................................................20

2.1 Dünyada Kənd Təsərrüfatının sosial-iqtisadi perspektivləri və inkişaf modelləri...........................................................................................................20

2.2 Ərazinin sosial-iqtisadi inkişafında yerli məhsulların rolu .................................................................................................................24

2.3 Azərbaycanda Kənd Təsərrüfatının inkişaf dinamikası, regional yerləşmə xüsusiyyətləri .................................................................................................33

2.4 Azərbaycanda Kənd Təsərrüfatının potensial sahələri və onun qiymətləndirilməsi.............................................................................................38

**3. Fəsil Azərbaycanda Kənd Təsərrüfatının inkişafının əsas istiqamətləri**...................................................................................................43

3.1 Azərbaycanda Turizm xidməti sahəsində innovasiya siyasəti..............43

3.2 Azərbaycanda Turizm xidməti sektorunda investisiya siyasəti............47

3.3 Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması................................................50

3.4 Azərbaycan kənd təsərrüfatında gələcək üçün nəzərdə tutulan strateji məqsədlər..........................................................................................................52

**NƏTİCƏ……………………………………………………………………54**

**ƏDƏBİYYAT SİYAHISI.........................................................................56**

# Mövzunun aktuallığı

Kənd təsərrüfatı son illərdə istehsalın ən geniş yayılmış sahəsi hesab olunur. Əvvəlki illərə nisbətən son dövrlərdə kənd təsərrüfatının rolu qeyri-neft sektorunda xüsusi paya sahib olmuşdur. Müstəqillik illərindən etibarən bu sahənin inkişafı davamlı olaraq artmışdır, son dövrlərdə bu sahəyə olan diqqət nəticəsində istehsalın həcmi artmış, eyni zamanda ÜDM-də payı çoxalmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalat prosesində müasir texnoloji avadanlıqlarından istifadə bu sahənin ilbəil inkişaf etməsinə səbəb olmuşdur. Xarici investorların bu sektora cəlb olunması son zamanlarda istehsalın həcmində ciddi artıma səbəb olmuşdur. Kənd təsərrüfatda davamlı inkişafın reallaşdırılması üçün ölkə Prezidentinin həyata keçirdiyi düşünülmüş siyasətin mühüm rolu vardır.

# Giriş

Azərbaycan Respublikası iqtisadiyyatında qeyri-neft sektorunun, bu sektora daxil olan iqtisadi sahələrin, xüsusən də kənd təsərrüfatı sahəsinin xüsusi yeri və payı vardır. Ölkə iqtisadiyyatının düzgün qurulmasında, inkişafının təminatında, dünya bazarına çıxışının reallaşdırılmasında, yerli əhalinin tələblərinə cavab verə bilən daxili bazara sahib olmaqda, ölkənin digər ölkələrdən asılılıq dərəcəsinin aşağı salınmasında aqrar sektorun inkişafının vacibliyi danılmazdır. Dövlət tərəfindən bu sahəyə diqqətin ayrılması və davamlı şəkildə inkişafina stimul yaratmaq üçün maliyyə dəstəklərinin həyata keçirilməsi mühüm proseslərdəndir. Məlumdur ki, ölkəmiz neft ehtiyatları ilə zəngindir. İqtisadi baxımdan yalnız bu sahəyə diqqətin ayrılması bir müddət keçdikdən sonra iqtisadi tənəzzülə gətirib çıxara bilər. Çünki yalnız neft ehtiyatlarının hasilatı və emalından istifadə etməklə ölkə təxminən 30 il əhalini normal həyat şəraiti ilə təmin edilə bilər, təbii ki, bu hal bir dövlətin gələcək məqsədi, inkişafı üçün müsbət qiymətləndirilə bilməz. Məhz buna görə də ölkə iqtisadiyyatının neft sektorundan asılılığını aradan qaldırmaq, qeyri-neft sektoruna diqqətin ayrılması vacibdir. Mövzunun da məqsədi bu sahədə dünya və ölkəmizin təcrübəsindən istifadə edərək iqtisadiyyatın qeyri-neft sektorunda kənd təsərrüfatının rolunu aşılamaq, ölkə iqtisadiyyatındakı rolunu müəyyənləşdirmək, gələcək zamanlarda bu sahədə dövlətin iqtisadı plan və məqsədləri ilə tanış olmaq, kənd təsərrüfatında inkişafa maneə olan faktorları müəyyən edərək problemlərin aradan qaldırılması metodlarını təyin etməkdən ibarətdir. Məlumdur ki, Azərbaycan Respublikası ərazisi zəngin təbii ehtiyatlara, kənd təsərrüfatı baxımından da yaxşı iqlim şəraitinə sahibdir. Buna görə də iqtisadiyyatı kənd təsərrüfatı üzərindən inkişaf etdirmək effektiv ola bilər. Son dövrlər dövlətimiz kənd təsərrüfatı sahəsinə xüsusi diqqət ayıraraq investisiya siyasətini tətbiq etmişdir, bunun nəticəsində isə kənd təsərrüfatının ayrı-ayrrı sahələrində, istehsalın həcmində artım qeydə alınmış və uyğun olaraq bu sektordan əldə olunan gəlirin miqdarınında xeyli çoxalma nəzərə çarpmışdır. Kənd təsərrüfatının inkişafi ölkə iqtisadiyyatına müsbət təsiri ilə yanaşı

əhalinin məşğuliyyətinin artımına, eləcə də həyat şəraitinin yaxşılaşdırılmasına səbəb olur. İstifadədən xaric olmuş torpaqların yenidən kənd təsərrüfatına cəlbi bu sahədə istehsal olunan məhsulların həcmində kifayət qədər artıma gətirib çıxarmışdır. Ölkədə kənd təsərrüfatı potensialına sahib olan sahələr, eyni zamanda uyğun ərazilər yaxşı araşdırılaraq istehsal artımına səbəb olacaq sahələr inkişaf etdirilir. Ölkəmiz əhalinin daxili tələbatını təmin edəcək kənd təsərrüfatı ehtiyatı potensialına sahibdir, həmçinin bəzi məhsulların xarici ölkələrə ixracını həyata keçirə biləcək imkanları mövcuddur və hal-hazırda bunu müəyyən qədər reallaşdırır. Azərbaycan Respublikası ölkə iqtisadiyyatında kənd təsərrüfatının gələcək zamanlarda daha çox rola sahib olması üçün bir sıra iqtisadi strateji məqsədlər müəyyənləşdirmişdir. Bu barədə növbəti fəsillərdə aydın izah verilmişdir.

# 1. Fəsil Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun payı və Azərbaycanda qeyri-neft sənayesinin inkişafının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizin qarşısında bir sıra mühüm vəzifələr dururdu. İlk öncə Azərbaycan müstəqil formada dünya iqtisadiyyatına səmərəli şəkildə inteqrasiya edən milli iqtisadiyyatını yaratmalı idi. Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına, onlarin hasilatı və emalı sahəsində əhəmiyyətli dərəcədə təcrübəyə malik olması ölkədə neft kimya sənayesinin inkişafına zərurət yaratmışdır. Ölkəmizin coğrafi yerləşməsi beynəlxalq tranzit nəqliyyat sisteminə qoşulmağısına , əlverişli təbii-iqlim şəraiti isə kənd təsərrüfatının, turizmin inkişafina əlverişi şərait yaradır. Müstəqilliyin əldə olunduğu dövrdən sonra düzgün iqtisadi islahatlar qəbul etmək üçün ölkədə kifayət qədər güclü hüquqi baza yaradilmalı idi, məhz buna görə də normativ hüquqi aktarın qəbul edilməsinə başlanıldı. Sərt maliyyə pul-kredit siyasətinin tətbiqi, qiymətlərin liberallaşması gömrük və vergi siyasətinin təkmilləşdirilməsi, xarici investorların cəlbi ölkənin iqtisadi islahatlarına daxil olan iqtisadi fəaliyyətlərindəndir.

## 1.1 Azərbaycan iqtisadiyyatının və sənayesinin inkişaf dinamikasının və strukturunun təhlili

Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək üçün düşünülmüş strategiya hazırlanmışdır. Bu strategiya dövlətin müstəqilliyinin olduğu mövqedə saxlanılması təmin etmək üçün əhəmiyyətli rola sahibdir. Həmçinin bu strategiyada neftin istehsalına da xüsusi diqqət ayrıldı. Xarici investorların cəlbi üçün Azərbaycanın kifayət qədər zəngin neft-qaz ehtiyatlarının olması ölkə

iqtisadiyyatının formalaşdırılmasında, iqtisadiyyatın davamlı inkişafında əhəmiyyətli dərəcədə rola sahibdir.

1994-cü ilin 20 sentyabrında "Azəri-Çıraq-Günəşli" yataqlarının kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü sazişi, "Əsrin müqaviləsi" nin imzalanması Azərbaycan iqtisadiyyatının esasını təşkil etmişdir. Bu kantraktın nəticəsində 1997-ci ildə ilk neft hasil olundu, 1999-cu ildən etibarən isə mənfəət nefti ixrac olunmağa başlanıldı. Bakı-Tblisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin işə başladılması, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəmərinin fəaliyyətə başladılması Azərbaycanın dünya bazarına neft və qaz çıxarılması imkanını əldə etdi. Bu iqtisadi fəaliyyətlərın nəticəsində Azərbaycan milli iqtisadiyyatında neft hasilatının payı kifayət qədər yüksəlmişdir. 2005-ci ildə Baki-Tbilisi- Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə ölkəmiz böyük neft gəlirləri əldə etmiş, illik ÜDM-in artım tempinə görə lider ölkələr siyahısına keçmişdir. Ümumiyyətlə son 10 ildə ÜDM-in dinamikası ölkə iqtisadiyyatında 7 dəfədən çox artım müşahidə olunduğunu göstərir, adambaşına düşən ÜDM-da isə 6.7 dəfə artım qeydə alınmışdır. 2003-2008-ci illərdə Azərbaycan iqtisadiyyatında artım neftin hasili ilə bağli idisə 2008-2013-cü illərdə ÜDM-in artımında iqtisadiyyatın qeyri-neft sektoru əhəmiyyətli rola sahib olmuşdur. Ümumiyyətlə Azərbaycan iqtisadiyyatı 2009-cu ildə qlobal iqtisadi böhran müddətində nisbətən zəifləsə də bir müddət sonra durmadan artmağa başlanmışdır. Bir sıra dünya ölkələri bu iqtisadi böhrandan sonra tədricən dirçələ bilsələr də ölkəmiz bir il ərzində iqtisadi baxımdan müsbətə doğru addımlar atılmışdır. 2009-cu ilin təhlili isə onu sübut edir ki, ölkədə istehsal olunan xidmət və məhsulların həcmində artım müşahidə olunmuşdur, həmin dövrdə ÜDM-in həcmi 9.3 faiz artmışdır. Son 10 il ərzində iqtisadi artımın neft amilindən asılılığı azaldılmış, Bakı-Tblisi-Ceyhan neft kəmərinin işə düşməsi, dövlət proqramlarının həyata keçirilməsi, Azərbaycan neftinin dünya bazarına çıxarılışı ölkə iqtisadiyyatına müsbət təsirlərini göstərmişdir. 2003-2013-cü illərdə ölkə iqtisadiyyatında ən yüksək inkişaf etmiş sahə

sənaye sahələri olmuşdur. [1]Ölkə daxilində sənaye müəssisələrinin qurulması ilə eləcə də son məhsul istehsalının artımını reallaşdırmaq məqsədi ilə dövlət tərəfindən müəyyənləşdirilmiş bir sıra iqtisadi tədbirlər sənaye sektorunun inkişafı üçün təkanverici hadisələr kimi qiymətləndirilir. Yüngül sənaye məhsullarının rəqabət qabiliyyətinin artması daxili bazarda xarici məhsulların sıxışdırılıb çıxarılmasına səbəb olan faktorlardandır. Qeyd olunan zaman ərzində yerli istehsalın stimullaşdırılması və milli iqtisadiyyatın inkişaf etdirilməsi eyni zamanda vergidən 7 il müddətində azadolmalar, subsidiyalaşdırılma, ölkənin xarici ölkələrlə ticarət münasibətlərinin qurulmasının genişləndirilməsi, dövlət vergi siyasətinin liberallaşdırılması ölkədə müşahidə olunan inkişafin esas səbəbləri kimi qiymətləndirilə bilər. 2012-ci ilin göstəricilərinə görə Cənubi Qafqaz ölkələrinin büdcə gəlirləri 26.6 milyard manat, büdcə xərcləri isə 26.7 milyard manat olmuşdur.

Məlumdur ki, dünya bazarında neftin qiymətdə qeydə alınan azalmalar Azərbaycan iqtisadiyyatını resurs amilindən, neft amilindən asılığı iqtisadiyyatın qeyri-neft sektoruna olan marağına və elacə də onun inkişafına səbəb olmuşdur. Buna görə də qeyri-neft sektouna olan investisiya qoyuluşunun həcmində artım qeydə alınmışdır. Xüsusən də 2007-ci ildə bu iqtisadi fəaliyyət daha çox nəzərə çarpırdı. 2007-ci ilə qədər investisiya qoyuluşunun 50%-dən çoxu neft sektorunun payına düşürdüse, 2008-2013-cü illərdə isə 70%-dən çoxu qeyri-neft sektorunun payına düşür. 2010-cu ilə nəzərən 2014-cü ildə isə iqtisadiyyata meyllenmiş investisiyaların hecmində 54% artım qeydə alınmışdır.

Ümumiyyətlə sənaye sahəsi iqtisadiyyatda əhəmiyyətli rol oynayan sahələrdəndir və sənayenin strukturunda olan dəyişikliklər ölkə iqtisadiyyatının digər əhəmiyyətli sahələrinə də kifayət qədər təsir göstərir. Azərbaycan Respublikası müstəqilliyin ilk illərində böhran vəziyyətində idi hətta emal sənayesində vəziyyət heç də urekaçan deyildi.

[1] http://www.respublica-news.az/index.php/iqtisadiyyat

Respublikada investisiya fəaliyyətində xarici investorların rolu azalsa da, sənayedə xarici investisiyaların rolu öz artım tempi ilə davam etməkdədir. Son dövrlərdə xarici investorlar üçün ən cəlbedici sahə neft və təbii qaz hasilatı sahəsi olmuşdur. Onu da qeyd etmək yaxşı olardi ki, 2005-2014-cü illərdə ölkədə sənaye sahəsinə qoyulan investisiyaların 70.8%-i xarici investorların payına düşür. Sənaye sahəsindən fərqli olaraq emal sənayesində bu göstərici 2.2%-ə bərabərdir.

Naxçıvan Muxtar Respublikası Statisika Komitəsi muxtar Respublikada 2018-ci ilin ilk ayları üçün qeydə alınmış statistik göstəriciləri açıqladı. 2018-ci ilin yanvar-fevral aylarının göstəricilərinə görə 241 milyon manat dəyərində sənaye məhsullarının istehsalı həyata keçirilmişdir. Əvvəki illərlə müqayisə etsək bu göstəricinin miqdarında artımı görmək mümkündür.

Hazırda dünyadakı iqtisadi vəziyyətə nəzər yetirsək inkişaf etmiş ölkələrdə sənaye məhsullarının istehsalının həcmi kənd təsərrüfatı məhsullarının istehsalının həcmindən dəfələrlə çoxdur. Bunun səbəbi isə sənaye məhsullarında yeniliklərlə bərabər əhalinin həmin məhsullara olan tələbatı sənaye məhsullarının daha çox təklif olunması ilə nəticələ bilir. ÜDM-da da sənaye məhsullarının payı kifayət qədər əhəmiyyətə sahibdir.

Ölkə iqtisadiyyatında sənaye istehsalı məhsullarının çoxalmasında daha çox mədən sənayesinin rolu olsa da emal sənayesinin də iqtisadiyyatda rolu az deyildir. Son zamanlarda ölkə iqtisadiyyatında sementin, məişət cihazlarının, kimyəvi məhsulların istehsalının həcmi davamlı sürətdə artmaqdadır. Təbii ki, bu hal ölkə iqtisadiyyatına ancaq iqtisadi töhfələrini verə bilər. Sənaye müəssisələrinin sayının artması da bu sahədə ümumi payın artımına səbəb olmuşdur.

## 1.2 Qeyri-neft sənayesinin inkişaf vəziyyətinin qiymətləndirilməsi

Qeyri-neft sənayesi Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasının əsasını təşkil edən sahələr içərisində qabaqcıl yer tutur. Ümumiyyətlə iqtisadiyyatın yalniz bir amildən asılılığı məqsədyönlü hesab edilmir, əksinə iqtisadiyyatın bir neçə amil üzərindən inkişaf edilməsi ölkənin iqtisadi maraqlarına düzgün və səmərəli şəkildə nail olunmasına gətirib çıxarar. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının təmin edilməsi neft sektorundan asılılığı aradan qaldırılmasına səbəb olmuşdur. Onu da qeyd etmək istərdim ki, neft sektorunun inkişafı qeyri-neft sektorunun inkişafı üçün baza rolunu oynayır və eləcə də neft sektorundan əldə olunan gəlirlər qeyri-neft sektoruna ayrılaraq onun inkişafına şərait yaradır. Ulu Öndər Heydər Əliyev 1990-cı ilin başlanğıcında neftin hasilatı ilə bağlı hər mövzuda olduğu kimi bu barədə də dəyərli fikirlərini söyləmişdir. Heydər Əliyev bildirmişdi ki, ölkədə neftin hasilatını unutmaq, yalnız təbiətin bizim ölkəyə bəxş etdiyi bu təbii nemətdən faydalanmağı kənara qoymaq və digər sahələri inkişaf etdirmək lazımdır. Çünki Xəzər dənizindən çıxrılan neftin hasilatı ilə tam 30 il ölkəni hər baxımdan maliyələşdirmək, əhali üçün yaxşı həyat şəraitini təmin etmək mümkün ola bilər. Bəs sonra? Bunları nəzərə almaqla ölkənin qeyri-neft sektoruna xüsusi diqqət ayırmaq, ölkə iqtisadiyyatının neftin hasilatı və ixracatından asılılığını aradan qaldırmaq vacibdir. Azərbaycan dövləti zəngin təbii ehtiyatlara, səmərəli coğrafi mövqeyə, rəqabətqabiliyyətli qeyri-neft sektoruna sahib olan bir ölkədir. Bunlardan faydalanmaq isə düzgün iqtisadi siyasət və strategiyalar tələb edir. Akademik A. Nadirov ölkə iqtisadiyyatı ilə bağlı fikirlərində Azərbaycan iqtisadiyyatının kompleks inkişafı üçün geniş imkanlar mövcud olduğunu bildirmiş, təbii sərvətlərdən düzgün şəkildə istifadə üçün isə müasir standartlara cavab verən yeni texnoloji avadanlıqların vasitəsi ilə istehsalatı həyata keçirməyin vacibliyini vurğulamışdır. Onuda qeyd edək ki, ölkənin əksər iqtisadi sahələrini və eləcə də regionlarını əhatə edən 1ci 2ci və 3cü Dövlət Proqramları ölkə tərəfindən hazırlanmış və qəbul edilmişdir. 1ci və 2ci

Dövlət Proqramları uğurlu şəkildə həyata keçirilmiş, 3cü Dovlət Proqramı isə hal hazırda icra olunmaqdadır. . Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün bu Dövlət Proqramları ilə kifayətlənmədən bu sahədə düzgün iqtisadi islahatlar həyata keçirilmişdir. Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı eləcə də kənd təsərrüfatının aparıcı sahəyə çevrilməsi üçün fərmanlar, sərəncamlar vermiş, bu mövzu ətrafında məqsədyönlü müzakirələr aparılmış və uğurlu qərarlar verimişdir.

Azərbaycan Respublikasında iqtisadiyyatın diversifikasiyası, inkişafı qeyri-neft sektorununda müşahidə olunan yüksəlişlə bağlılıq təşkil edir. Diversifikasiya ingilis dilindən götürülmüş iqtisadi termindir, mənası istehsal olunan məhsul çeşidinin genişləndirilməsi olaraq qəbul edilir. İqtisadi tədqiqatçıların fikrincə güclü iqtisadiyyata sahib olmaq üçün iqtisadiyyatın hər bir sahəsinin diversifikasiyası vacib amillərdən hesab oluna bilər. Azərbaycan iqtisadiyyatında rəqabətqabiliyyətli iqtisadi vəziyyətin yaradılmasında və innovasiyalaşdırılmasında iqtisadi inkişaf istiqamətləri mövcuddur ki, bunlara bazarda yerli istehsalçıların istehsal etdiyi məhsullara olan tələbatın artırılması və xarici bazarda müəyyən paya sahib olmaq üçün aparılan əsaslı iqtisadi addımlar daxildir. Xarici bazarda ölkənin istehsal məhsullarına tələbatin olması üçün xüsusən də ixrac yönümlü məhsulların keyfiyyəti və həmçinin görünüşünə diqqət ayırmaq və məhsul çeşidlərində artıma nail olmaq lazımdır. Qeyri-neft ixracı coğrafiyasının genişləndirilməsi və xarici bazara çıxışını təmin etmək iqtisadiyyatın inkişafının mühüm şərtlərindəndir. Son zamanlar Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində aparılan islahatlar qeyri-neft sektorunda mühüm nəaliyyətlərə səbəb olmuş, ixracqabiliyyətli məhsulların istehsalında inkişaf qeydə alınmışdır. Hal hazırki dövrdə dünyada baş verən prosesler iqtisadi islahatların düzgün təşkilini zəruri etməklə yanaşı ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırılmasını, sahibkarlığın inkişaf etdirilməsini tələb edir.

Qeyri neft sektorunun özənəməxsus xüsusiyyəti vardır belə ki, neft sektoru ilə müqayisədə istehsalın real artım sürəti tələbdən ciddi şəkildə asılı deyildir, real istehsalın artım sürəti cəlb edilmiş investisiyalar, ökədə qeydə alınan struktur

dəyişiklikləri, daxili tələbin dəyişməsi ilə asılılıq təşkil edir. Son illərdə ölkə iqtisadiyyatının qeyri-neft sektoru bir sıra dəyişiklərə məruz qalmışdır. İstehsalın strukturunda kənd təsərrüfatının, xidmətlər sektorunun rolu artmış, qeyri-neft sektorunun ümumi istehsalda payı azalmışdır. Qeyri-neft sektorunda mühüm əhəmiyyətli layihələrin həyata keçirilməsi ilə ölkənin iqtisadiyyatının inkişaf səviyəsinin neftdən asılılığı tədrican aradan qaldırılmasına nail olunur.

2003-cü ilin sonlarından etibarən Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın gücləndirilməsi istiqamətində qeyri-neft sektorunun roluna olan xüsusi diqqət nəzərə çarpacaq dərəcədə görünür. Aşağıda yerləşdirilən cədvəldə UDM-də qeyri-neft sektorunun payı göstəriciləri qeyd olunmuşdur:




Son illərdə ölkədə aparılan iqtisadi siyasət nəticəsində ölkədə iqtisadi vəziyyət davamlı sürətdə inkişaf etməkdədir. 2010-cu ildə ölkədə qeyri-neft sektorunda 7.9%-lik artım müşahidə olunmuşdur, 2005-2010-cu illərin statistik göstəricilərini nəzərə alsaq görərik ki, bu dövr ərzində ümumi iqtisadi inkişafla bərabər qeyri-neft sektorunda da davamlı inkişaf nəzərə çarpmişdır. 2010-cu ildə ölkədə istehsal olunan

mal ve xidmətlərin ümumi həcmi 2009-cu illə müqayisədə 2.6% artaraq 27.4 milyard manat olmuşdur.

2016-cı ildən etibarən ölkəmizdə tətbiq edilən iqtisadi islahatların başlıca istiqamətləri iqtisadiyata investisiya qoyuluşunu sürətləndirmək, qeyri-neft sektonun inkişafını neft sektorundan əldə olunan gəlirlə təmin edilməsini azaltmaq, xarici ölkələrə yerli məhsulların ixracını artırmaq, eyni zamanda müxtəlif xidmətlərlə xarici valyutanın ölkə iqtisadiyyatına cəlb etməkdən ibarətdir. Dövlət başçısı İlham Əliyev tərəfindən bu sektorda bir sıra sərəncamlar imzalanmışdır. İmzalanmış sərəncamlara əsasən ölkədə fəaliyyət göstərən iş adamlarına vergi və gömrük güzəştləri tətbiq olundu, eyni zamanda ölkə daxilində istehsal olunan məhsulların xarici ölkələrdə tanıdılması üçün ixrac məqsədli normalara nəzər salındı. Onu da qeyd etmək yaxşı olardı ki 2016-cı ildə Prezident İlham Əliyev tərəfindən "qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamın imzalanması həmin ildə hiss olunacaq dərəcədə iqtisadi inkişafa səbəb olmuşdur. 2017-ci ilin statistik göstəricilərinə görə qeyri-neft sektorunun inkişafı alti ay erzində 1.7% artmış aeyri-neft sənayesində artım isə 4.4% qeydə alınmışdır. Bu göstəricilər dövlətin rellaşdırdığı islahatların nəticəsində baş vermişdir. Qeyri-neft sektorunun inkişafı ilə paralel şəkildə bu sahədə ixracın inkişaf etdirilməsı ölkə iqtisadyyatının başlıca məqsədlərindəndir. Dövlət tərəfindən stimullaşdırıcı tədbirlər bu sahədə dinamik inkişafa səbəb olur. 2017-ci ilin statistik  göstəricilərinə görə ilin müəyyən dövründə qeyri-neft sektorunda ixrac 27 faiz artım müşahidə olunmuşdur. Araşdırmalara görə qeyri-neft sektorunda ixraca görə birinci yeri pomidor, xüsusən tomat məhsulu, ikinci yeri qizil tutur, üçüncü yerdə isə polietilen yer alir. İqtisadi məlumatlara əsasən 2017-ci ilin ilk aylarında qeyri-neft məhsullarının ölkədən ixrac edildiyi ölkələrin siyahısında İsveçrə, Türkiyə, Rusiya, Türkmənistan və Gücüstan vardır. İl ərzində həmin ölkələrə müxtəlif miqdar valyuta dəyərində məhsullar ixrac olunmuşdur.

2017-ci ilin ilk altı ayı ərzində xarici ökələrdən "azexport.az" saytına müraciət və sifariş statistik göstəricilərə əsasən Rusiya Federasiyası olmuşdur.

Qeyri-neft sektoru sahəsi olan sənaye sahəsi ölkənin iqtisadiyyatının dayanıqlılığının gücləndərilməsində əhəmiyyətli rola sahibdir. Xüsusən də son 10 ildə ölkəmizin iqtisadi siyasətində sənaye sahəsinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılıb. Ölkədə ərzaq çatışmazlığının qarşısını almaq üçün çoxlu sayda ərzaq istehsalı ilə məşğul olan müəssisələrin yaradılmasına, onların fəaliyyətlərini düzgün şəkildə həyata keçirilmələri üçün münbit şəraitin yaradılmasına baxmayaraq, 2012-2013-cü illərdə ərzaq məhsullarının istehsalında əhəmiyyətli dərcədə fərq qeydə alınmamışdır. Qeyri-neft sektoruna daxil olan tekstil sahəsi də ölkəmizdə arzu olunan dərəcədə inkişaf etməmişdir. Buna səbəb ölkədə bu sahədə xammal qıtlığının olmasıdır. Ölkədə dəri məhsullarına, ayaqqabi istehsalına tələbatın olmasına baxmayaraq bu sahədə də durğunluq nəzərə çarpır. Mebel istehsalında isə ölkənin potensial qüvvəsinin olmasına, bu sahədə kifayət qədər müəssisələrin fəaliyyət göstərməsinə baxmayaq 2011-ci ildən etibarən mebel istehsalında məhsul istehsalının zəifləməsi halı ilə üzləşilir.

Qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafında sahibkarlığın rolunu vurğulamaq lazımdır. Ölkənin ÜDM-də 85% özəl sektorun payına düşür. Vergi daxilolmalarında isə bu faiz göstəricisi 72.4% təşkil etmişdir. Aqrar sektorda, mehmanxana və iaşə xidmətlərində qeyri-dövlət bölməsinin payı 70-99% aralığında fərqlənir.

Qeyri-neft sektorunda aqrar sektorunun inkişafı ölkədə daxili tələbatı təmin etməyə gətirib çıxarır. Dövlət tərəfindən investisiya siyasətinin tətbiqi bu sahənin inkişaf etdirilməsinə, bilavasitə əhalinin aqrar sektorunun məhsullarına olan tələbatını qarşılamağa imkan verir. Qeyri-neft sektoruna daxil olan sahələr içərisində aqrar sektorun, kənd təsərrüfatı ölkə daxilində daha çox potensiallığa sahib olan sahələrdəndir. Məlumdur ki Azərbaycan əhalisinin yarıdan çoxu kənd yerlərində məskunlaşmışdır, bu da kifayət qədər əmək ehtiyatına sahib olmağımız anlamına gəlir. Aqrar sektorda məhsul istehsalını genişləndirmək, bu sahədə investisiya siyasətini həyata keçirmək, investorların cəlbi üçün potensial bölmələrin diqqət

mərkəzinə çıxarmaq, regionların sürətli inkişafını həyata keçirmək bu sahənin ölkənin iqtisadiyyatında əhəmiyyətli dərəcədə paya sahib olmasına yardımçı olur.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsində ixrac yönümlü inkişaf strategiyalarının reallaşdırılmasının əhəmiyyətli rolu vardır. Onu da qeyd edim ki, hal hazırda ölkədə qeyri-neft sektorunda potensial qüvvədən aşağı dərəcədə inkişaf vardır. Bu natarazlığı aradan qaldırmaq üçün kompleks tədbirlərin planlaşdırılması və həyata keçirilməsi vacib proseslərdəndir.

## 1.3 Qeyri-neft sektorunun inkişafı sahəsində problemlər və bunların həll yolları

Ölkənin qeyri-neft sektorunun inkişafında eləcə də xarici dövlətlərə ixrac proseslərində inkişafa nail olmunmasına öz mənfi təsirini göstərən müəyyən problemlər mövcuddur. Həmin problemləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- Azərbaycan iqtisadiyyatında yanacaq-energetika sektorunun əsas rola sahib olması;
- Qeyri-neft sektorunda nəzərdə tutulan iqtisadi tədbirlərin icrasında olan gecikmələr;
- İnvestisiya proselərində səmərəli və güzəştli yanaşma problemlərinin mövcudluğu;
- Ölkədə müasir intellektual potensialda olan zəiflik;
- Qeyri-neft sektorunda yüksək dərəcədə ixtisaslı kadrların olmması və ya düzgün hazırlanmaması;
- Qeyri-neft sənaye müəssisələrinin mərkəzi şəhərlərdə inkişafı, regionlar olaraq bir-birindən fərqlənən inkişafın halların qeydə alınması;
- İstehsalatda məhsullarda materialtutumluluq səviyəsinin yüksək dərəcəsi;

- İqtisadiyyatda menecment sahəsinin aşağı səviyyədə olması, başqa cür desək müasir standartlara cavab verməməsi;
- Qeyri-neft sənaye müəssisələrinin rəqabətqabiliyyətli olmaması;
- İnnovasiyayönümlü məhsul və xidmətlərin istehsalına meylin olması;
- İstehsalda texnoloji avadanlıqların amartizasiyasının zəif olması və sair kimi problemlər.

Azərbaycan Respublikası qeyri-neft sektorunda inkişafa nail olmaq, müəyyən qədər bu sahədə olan problemləri aradan qaldırmaq və ya qarşısını almaq üçün bir sıra iqtisadi qərarları qəbul edir ki, bu istiqamətdə olan qərarlara xarici investorların ölkə iqtisadiyyatına cəlbi, istehsalatda müasir texnologiyanın tətbiqi, bazara teqdim olunan məhsul və xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunvericilik bazasının inkişaf etdirilməsi, sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi halları misal göstərilə bilər. Bütün bunların həyata keçırilməsi ölkənin qeyri-neft sektorunda yaranan problemləri aradan qaldırmağa yardım edə bilər, eləcə də problemlərin yaranmasının qarşısını ala bilər.

Ölkəyə xarici investorların cəlbi üçün iqtisadiyyatda potensial inkişaf sahələrinin önə çəkilməsi ilə, investisiya ayıran şirkət və ya subyektlər üçün maraqlı olan iqtisadi vəziyyətin yaradılması ilə ölkə iqtiadiyyatında kifatət qədər əhəmiyyətli dərəcədə iqtisadi məqsədlərə nail olmaq mümkündür. İstehsalatda müasir texniki avadanliqlardan istifadə olunmasi məhsul və xidmətlərin istehsalı prosesini gücləndirməyə yardımçı olur ki bu da müsbət hal olaraq qiymətləndirilir. Təbii ki vaxti ilə daha çox istifadə olunan əl əməyinin müasir zamanda yeni texnoloji avadanlqlarla əvəz olunması həm canlı potensial əməyə, həm də iş prosesində də kifayət qədər dəyərli olan zamana qənaet kimi baxıla bilər. İstehsalatda rəqabətqabiliyyətli istehsalata önəm vermək qeyri-neft sektorunda inkişafa təkan verən amillərdəndir.

Azərbaycan Respublikası öz iqtisadi müstəqilliyini qoruyub saxlaya bilmək, dünya bazarına normal şəkildə inteqrasiya oluna bilmək üçün sənayedə struktur

dəyişikliklərini reallaşdırmağa çalışır, qeyri-neft məhsullarının ixracının həcminin artırılmasına və bu sahədə olan problemləri aradan qaldırılmasını reallaşdırmaqla qeyri-neft sektorunun yüksək inkişafına nail olunmağa çalışır, eyni zamanda bu istiqamətdə əsaslı addımlar atır.

# 2. Fəsil Dünyada və Azərbaycanda Kənd Təsərrüfatının mövcud vəziyyəti və sosial-iqtisadi qiymətləndirilməsi

Kənd təsərrüfatı insan fəaliyyətinin qədim zamanlardan bəri başlıca məşğuliyyəti olmuşdur. Dünya əhalisinin 1.1 milyard nəfəri kənd təsərrüfati sahəsində çalışır. Təbii ki, ölkələr arasında kənd təsərrüfatında işləyən əhalinin sayında fərqlər mövcuddur. Bu ölkə iqtisadiyyatında kənd təsərrüfatının nə dərəcədə rol oynadığına eləcə də bu sahəyə olan tələbatdan asılıdır. Qərbi Avropada kənd təsərrüfatında işləyənlərin sayı fəa əhalinin 9%-i, Şimali Amerikada 6%-i, İOE-də 70-80% kənd təsərrüfatı sahəsində işləyir. Kənd təsərrüfatının inkişafında intensiv və ekstensiv yollar vardır ki, onlar barədə aşağıda geniş şəkildə izahi göstərilmişdir.

Kənd təsərrüfatının inkişafında intensiv yol kimyalaşdırma, suvarma, melorasiya, mexanikləşdirmə və s amillərin təsiri nəticəsində əmək məhsuldarlığının inkişaf etdirilməsidir. Bu növ yol böyük vəsait tələb edir, İEÖ üçün səciyyəvi yoldur. Digər inkişaf yolu olan ekstensiv yol isə otlaqların genişləndirilməsi, heyvanların eləcə də kənd təsərrüfatı müəssisələrinin sayının artırılması hesabına məhsul artımına nail olmaqdır. Bu yol isə İOÖ üçün xarakterikdir.

## 2.1 Dünyada kənd təsərrüfatının sosial-iqtisadi perspektivləri və inkişaf modelləri

İqtisadiyyatda "yaşıl inqilab" adında termin vardır ki, mənası müasir aqrotexniki qaydalardan istifadə ilə bağlı məhsuldarlığn artması deməkdir. Əkinçilikdə "yaşıl inqilab", heyvandarlıqda sənaye texnologiyası Latın Amerikası və Asiyada tətbiq olunur. Onu da qeyd edim ki, Yaşıl inqilab xırda təsərrüfatlara az tətbiq edilir.

Məlumdur ki, kənd təsərrüfatı bitkiçilik və heyvandarlıq olaraq iki hissəyə bölünür.

Bəzi ölkələrdə kənd təsərrüfatında heyvandarlıq üstunlük təşkil etsə də digərlərində bitkiçilik sahəsi inkişaf etmiş ola bilir. Şimali Amerika, Avstraliya, Yeni Zellandiya və aqrotexniki qaydalardan istifadə edn Avropa ölkələrinin kənd təsərrüfatında heyvandarlıq üstünlük təşkil edir. Təbii ki ölkədə kənd təsərrüfatının hansi sahəsinin önəm daşıması ölkənin mövcud təbii şəraitindən asılıdır. ETİ-nin tərəqqisinə baxmayaraq kənd təsərrüfatının təbii mühitdən asılılıq əlaqəsi davam etməkdədir. Təbii ilkin şəraitə bu məqamlar daxil edilir.

- Torpaq resursları
- Aqroiqlim resursları
- Torpağın münbitliyi
- Heyvandarlıq üçün nəzərdə tutulan yem bazası kimi istifadə edilen bitki resursları

İEO-də iri torpaq fondunun əksər hissəsi nəhəng torpaq sahibkarlarının və şirkətlərinin əlində cəmlənmişdir, həmçinin dövlət də iri torpaq sahibkarı hesab olunur. Müasir kapitalist kənd təsərrüfatına sahib ölkələrdə torpağın iri sahibkarların əlində cəmlənməsi səciyyəvi haldır.

Kənd təsərrüfatına yararlı torpaqlar 3 tipə bölünür:

- Becərilən
- Təbii otlaq və biçənəklər
- Dincə qoyulan, istifadə olunmayan və ya az istifadə olunan torpaq resursları

Kənd təsərrüfatına yararlı torpaqların strukturu kənd təsərrüfatının ixtisaslaşmasına təsir edir. Həmin torpaqların struktu isə ilbəil dəyişə bilər, bu onların istifadə formalarından asılıdır. Məlumdur ki, kənd təsərrüfatının inkişaf etdiyi ölkələrdə kənd təsərrüfatının ixtisaslaşma səviyələri müxtəlif ola bilir. Bir çox İEO-

də ixtisaslaşma sahələrinin çoxluğu qeydə alınmışdır ki, buna porikultur, İEO-də isə monokultur kənd təsərrüfatı mövcuddur ki, bir və ya iki kənd təsərrüfatı sahəsi ilə təmsil olunur.

Kənd təsərrüfatının digər növü olan heyvandarlıq haqqında bir sıra məlumatları qeyd etmək istərdim. Ümumi dünya üzərindən yanaşsaq Şimali Amerika, Avropa ölkələri, xüsusən də Avstraliya və Yeni Zellandiya ölkələrində kənd təsərrüfatının əsas rola sahib olmasını, iqtisadiyyatda kifayət qədər əhəmiyyətli mövqeyə sahib olmasını qeyd edə bilərik. Heyvandarlıqda üç sahə mövcuddur ki, bura qaramal, qoyunçuluq, donuzçuluq aiddir.

Təbii ki, iqlim tiplərindən asılı olaraq ölkədə bitkiçiliyin növlərində fərqlər olduğu kimi heyvandarlıqda da bu cür fərqlərə rast gəlinməsi normal haldır. Belə ki, mülayim iqlim qurşağında südlük, südlük-ətlik maldarlıq, subtropik iqlim qurşağında yerləşən ərazilərdə isə ətlik maldarlıq geniş yayılmışdır. Avstraliya, Yeni Zellandiya eləcə də Kanada ölkələrində heyvandarıqda əmtəəlik maldarlıq səciyyəvidir. Dünyada istehsal olunan və istifadə üçün istehlakçılara təqdim olunan ət məhsullarının 40%-i donuzçuluğun payına düşür. Məhz donuzçuluqla məşğul olan şəhərlər vardır ki, adətən həmin ərazilər şəkər çuğunduru əkinlərinin reallaşdırıldığı zonalar olur. Çin, ABŞ, Fransa ölkələri donuzçuluqda ixtisaslaşmış ölkələr siyahısına daxildir.

Qoyunçuluq isə geniş otlaq sahələrinə sahib ərazilərdə, eləcə də dağlıq zonalarda inkişaf etmişdir. Yarımsəhra, quraq iqlimə malik ərazilərdə tövlə şəraitində heyvandarlığın qoyunçuluq növü inkişaf etmişdir. Avstraliya, Yeni Zellandiya, Hindistan və s. kimi ölkələrdə qoyunçuluq geniş yayılmış heyvandarlıq sahələrindəndir.

Heyvandarlığın digər növü olan balıqçılıq okean və dənizin demək olar hər yerinə yayılır. Məhz balıqçılıq istehsalının məhsullarının yarısı dünyanın 6 ölkəsinin payına düşür. Bu ölkələr siyahısına Yaponiya, Çin, ABŞ, Rusiya, Peru, Çili ölkələri yer alır. Dünyada balıq ehtiyatının 85%-i insanlar tərəfindən ovlanılır, 75-80%-i

əhalinin ətə olan tələbatını ödəmək məqsədi ilə istifadə edilir. Balıq ovunun həyata keçirilməsi həcmi dünya okeanlarında müxtəlif səviyələrdə bir-birindən fərqlənir. Ən çox balıq ovunun reallaşdırıldığı okean Sakit okeandır, ikinci sırada Atlantik okean, üçüncü sırada isə Hind okeanı yer alır. Dünyada ən çox balıq məhsullarının istehsalı ilə məşğul olan ölkə isə Yaponiyadır.

Quşçuluq sənayeləşmiş intensiv kənd təsərrüfatının heyvandarlıq sahəsidir. Zaman keçdikcə dünya üzərində heyvandarlığın ümumi həcmində quşçuluğun payı artır. Quşçuluq heyvandarlığının müsbət cəhəti qisa müddət ərzində əhalinin ət məhsuluna olan tələbatını ödəyə bilmə qabiliyyətinə sahib olmasıdır. [2]

Kənd təsərrüfatında bitkiçiliyin də rolu az deyildir. Məlumdur ki bitkiçilik əkinçilik və dəmyə olaraq iki hissəyə bölünür ki, ərazinin iqlim tipinə görə dəyişir. Taxıl bitkiləri dünya kənd təsərrüfatının əkinçilik sahəsində kifayət qədər mühüm paya sahibdir. Hətta dünya əkin sahələrinin yaridan çox hissəsini taxılçılıq təşkil edir. Şimali Amerika, Argentina, Avstraliya əraziərində taxıl istehsalı geniş yayılmışdır. Onu da qeyd edim ki, taxıl əhalinin az məskunlaşdığı ərazilərdə yetişdirilir.

Dünyada ölkələri içərisidə tərəvəz məhsullarının istehsalında Çin, banan istehsalında  Braziliya, zeytun istehsalı və yığımına görə İspaniya, kauçuk istehsalına görə İndoneziya və Malayziya, çay və araxis istehsalına görə isə Hindistan əsas yer tutur. Cənub Şərqi Asiya ölkələrində kauçuk istehsalı geniş yayılmışdır.

Dənli bitkilərin istehsalında ABŞ, Kanada, Argentina fərqlənir. Yaponiya və Çində təsərrüfatın bu növü az inkişaf etmişdir.

Torpaq resurslarının çox olduğu zonalara Avstraliyanı, Yeni Zellandiyanı misal çəkmək olar. Ölkənin ərazisində torpaq sahələrinin miqdarını “bir nəfər işçiyə düşən torpaq” göstəricisinə əsasən təyin etmək olar.

---

[2] Zvi Lerman, “Agriculture in Transition Economies: From Common Heritage to Divergence”, Agricultural Economics, 26, 2001

Kənd təsərrüfati məhsulları sənaye sahəsinin istehsalında xammal rolunu oynaya bilir, xüsusən də texniki bitkilər sənaye sahəsində istehsal olunan malların son məhsul olmasında əhəmiyyətli rola sahibdir. Ümumiyyətlə statistika göstərir ki, ölkədə inkişaf baş verdikdə ölkə əhalisinin çörəyə tələbatı azalır lakin ət və süd məhsullarına olan tələbi isə davamlı sürətdə artır.

Kənd təsərrüfatı fəaliyyətinin strukturunun hazırlanması zamanı tələb və təklifın dərəcələrinə nəzər saldıqda tarazlığın qorunmasına nail olmaq mümkündür. Ümumiyyətlə kənd təsərrüfatı məhsullarının istehsalında da elmi əsaslara söykənmək vacib amillərdəndir.

## 2.2 Ərazinin sosial-iqtisadi inkişafında yerli məhsulların rolu

Hər bir dövlət ərzaq təhlükəsinı aradan qaldırmaq onun yaranmasının qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirir. Ərzaq təhlükəsizliyi ölkənin iqtisadi inkişaf konsepsiyasının reallaşdırılmasının vacib istiqamətlərindəndir. Ərzaq təhlükəsizliyi kənd təsərrüfatı məhsullarının istehsalında özünü müəyyən mənada göstərir. Ərzaq təhlükəsizliyi ölkənin iqtisadi təhlükəsizliyinin vacib hissəsi olmaqla bərabər dövlətin iqtisadi-siyasi gücünü özündə birləşdirir.

Ölkədə Ərzaq təhlükəsizliyinin həyata keçirilməsinin mühüm əhəmiyyətli amilləri vardır ki, bu amillərə aşağıda qeyd olunanlar daxildir;

- istehsal imkanlarının mövcudluğu,
- istehsalın reallaşdırılması,
- məhsulun keyfiyyətinin göstəriciləri,
- əhalinin alıcılıq qabiliyyətinin təmin edilməsi

Dövlət ehtiyyat fondlarının yerli istehsal hesabına qurulmasının ölkədə ərzaq təhlükəsizliyinin reallaşdırılmasında mühüm iqtisadi rolu vardır.

Ehtiyyat ərzaq fondunun qurulması, ondan istifadə olunması yerli istehsalın həcminin artmasında əhəmiyyətli rola sahibdir. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün daxili bazarı xarici təsirlərdən qorumaq lazımdır. Yerli məhsul istehsalının həcmi daxili bazarın tələbatını qarşılaya bilməyəndə daxili bazara xarici təsirlər yaranır.

Kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artırılması üçün sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi vacib hallardan hesab olunur. Bu hal isə yerli məhsulların istehsalının həcminin artırılması ilə sıx əlaqəlidir.

Ərzaq təminatı həmçinin ölkə əhalisinin yaşayış səviyəsini müəyyənləşdirən vacib göstəricilərdəndir. Ölkə əhalisinin ərzaq təminatında yaranan problemlər ərzaq təhlükəsizliyinə də öz neqativ təsirini göstərir.

Ərzaq təhlükəsizliyinin resurs təminatında əmək resurslarından səmərəli istifadə edilməsi mühüm amillərdən biri hesab olunur. Aparılan araşdırmalara görə ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsində ən vacib faktor istehsalın intensivləşdirilməsidir. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”-nda qeyd olunub ki, etibarlı ərzaq təminatı hər bir ölkənin sosial dayanıqlığının mühüm şərtlərindən hesab olunur. [3]Ölkə əhalisinin etibarlı ərzaq təminatının formalaşdırılmasına təsir göstərən vacib amillərdən biri də ölkənin rəqabətə davamlı istehsala sahib olmasıdır.

Bazar münasibətləri şəraitində ölkə əhalisinin ərzaq təhlükəsizliyinin kifayət qədər təminatı üçün dövlətin ərzaq ehtiyatlarının istehsalında mümkün olan bütün səmərəli istiqamətlərinin müəyyən edilməsi və tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlətin iqtisadi vəziyyətində olan inkişaf regionların inkişaf səviyyəsinə görə qiymətləndirilir.

---

[3] http://senaye.gov.az/az/normative_programs/food_safety

Ölkənin daxili ərzaq bazarının inkişafı, ərzaq təhlükəsizliyi ilə təminatı və ölkə əhalisinin etibarlı ərzaq təminatına nail olunması ilə sıx bağlıdır. Ölkə əhalisinin aqrar məhsullarla təminatını formalaşdırmaq üçün aqrar infrastrukturun qurulması əhəmiyyətli amil kimi qiymətləndirilir.

Bildiyimiz kimi kənd təsərrüfatının əsas istehsal vasitəsi torpaqdır, torpaq mülkiyyətçilərin isə başlıca sərvətidir. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi torpaqdan istifadənin formasından asılı olaraq dəyişir. Torpaqdan düzgün şəkildə istifadə olunması kənd təsərrüfatı məhsulları istehsalçılarının öz məqsədlərinə nail olmaları üçün qarşılarında duran mühüm vəzifələrdəndir. Kənd təsərrüfatı sahəsinə kapital qoyuluşlarının artırılması kənd təsərrüfatının intensiv inkişafına nail olmaq üçün vacib şərtlərdən hesab olunur. Kənd təsərrüfatı sahəsinə lazımi dərəcədə kapital qoyuluşları olmadan kənd təsərrüfatı mallarının istehsalının sənaye əsaslarına keçirilməsi və eləcə də ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək mümkünsüzdür.

Ölkəmizin kənd təsərrüfatı bitkilərinin kifayət qədər yüksək məhsuldarlığına sahib ola bilən münbit torpaq sahələrini vardır. Azərbaycan ərazisində yalnız yerli xammaldan istifadə edərək istehsalat prosesi həyata keçirilmir, həmçinin kənd təsərrüfatı istehsalçıları istisna hallarda xarici ölkələrdən idxal olunmuş kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurlar.

Azərbaycanın bəzi bitkiçilik və heyvandarlıq məhsulları üzrə ayrı-ayrılıqda illər üzrə ərzaq balanslarına nəzər salaq. (cədvəl 1, 2)

Son illərdə Respublikamızda ölkənin ərzaq ehtiyatlarından söhbət getdikdə Dövlət Taxıl Fondu haqqında danışmaq məqsədə uyğun olar.

Beynəlxalq təşkilatların rəylərinə əsasən, Azərbaycanda ərzaq təhlükəsizliyi göstəriciləri son illərlə müqayisədə xeyli artmış və dünya normaları çərçivəsində orta səviyyələrdə qiymətləndirilir.

Ərzaq istehsalında xarici ölkələrdən asılılığı aradan qaldırmaq, yerli istehsalat hesabına əhalinin ərzağa olan tələbatının maksimum ödənilməsinin təmin edilməsi lazımdır. Bu ərzaq təhlükəsizliyinin təmin olunması üçün çox vacib amillərdən biridir. Ərzaq məhsullarının istehsalının həcminin artımı ilə idxal həcmlərinin artmasını əhalinin istehlak səviyyəsində artım ilə izah etmək olar. Bütün bunlara baxmayaraq idxal həcmlərinin azalması və eyni zamanda ixracın artırılması halı ölkə iqtisadiyyatının inkişaf istiqamətində qarşısında duran mühüm vəzifələrdən hesab olunmalıdır.

**Cədvəl 1. Müxtəlif dənli və paxlalı bitkilərin və buğda ehtiyatlarının illər üzrə ehtiyatları.**

| Dənli və paxlalıların ehtiyatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| *ton* | | | | | | |
| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| İlin əvvəlinə qalıq | 1235950 | 1023047 | 1125049 | 1421790 | 1630496 | 1270782 |
| İstehsal | 1946550 | 2391134 | 2728298 | 2876515 | 2319747 | 2920055 |
| İdxal | 1495930 | 1296804 | 1508379 | 1619303 | 1498632 | 1603026 |
| Ehtiyatların cəmi | 4678430 | 4710382 | 5364723 | 5917608 | 5448875 | 5793863 |
| Buğda ehtiyatları | | | | | | |
| ton | | | | | | |
| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| İlin əvvəlinə qalıq | 901740 | 749563 | 828177 | 1067576 | 1229452 | 856804 |
| İstehsal | 1572340 | 1594394 | 1797028 | 1841307 | 1407405 | 1639830 |
| İdxal | 1330017 | 1166572 | 1366335 | 1451257 | 1105656 | 1353072 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ehtiyatların cəmi | 3504097 | 3510529 | 3989540 | 4360140 | 3832713 | 3849706 |

**Cədvəl 2. Bütün növ mal-qara, quş ətinin, balıq və balıq məhsullarının illər üzrə ehtiyatları.**

| Bütün növ mal-qara və quş ətinin ehtiyatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| *ton* | | | | | | |
| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| İlin əvvəlinə qalıq | 8859 | 9032 | 7846 | 9988 | 9886 | 9259 |
| İstehsal | 244896 | 254897 | 276038 | 286880 | 291187 | 298623 |
| İdxal | 36009 | 38721 | 26513 | 25145 | 25417 | 17566 |
| Ehtiyatların cəmi | 289774 | 302657 | 310393 | 322021 | 326503 | 325459 |
| Balıq və balıq məhsullarının ehtiyatları | | | | | | |
| ton | | | | | | |
| İllər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| İlin əvvəlinə qalıq | 890 | 624 | 1084 | 2300 | 2719 | 2687 |
| İstehsal | 45315 | 47025 | 57667 | 50960 | 50067 | 51237 |
| İdxal | 14092 | 17665 | 19564 | 20177 | 18748 | 14831 |
| Ehtiyatların cəmi | 60297 | 65314 | 78315 | 73437 | 71534 | 68755 |

Statistik məlumatlar göstərir ki, ölkəmizdə kənd təsərrüfatında istehsal olunan ərzaq məhsullarının istehsal həcminin artması ərzaq təhlükəsizliyinin riskini azaltsa da ölkənin  əsas ərzaq məhsullarına olan yerli tələbatını tam ödəmək hələki mümkün olmamışdır.

Aqrar sektorun qarşısında kənd təsərrüfatı məhsulları istehsalının gücləndirilməsi ilə bərabər eyni zamanda istehsalın iqtisadi səmərəliliyinin artırılması problemləri də durur. Buradan belə qənaətə gəlmək olar ki, istehsalın həcminin artırılması hələ hər şey demək deyildir. Bununla bərabər istehsal olunan məhsulun keyfiyyətinin də standartlara cavab verməsi əhalinin həmin məhsulları istehlak etməsinə maraqlı olmaları üçün vacib hesab olunur. Keyfiyyətin yüksək olması üçün isə davamlı sürətdə bu sahəyə dövlət tərəfindən nəzarətin həyata keçirilməsi vacib hesab olunur. Bu kənd təsərrüfatında  məhsulları istehsal edərkən istehsal resurslarından, maddi texniki vasitələrdən, torpaqdan səmərəli şəkildə istifadə edilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalda düzgün tətbiq edilməsini tələb edir.

Azərbaycanda potensial ərzaq təhlükəsizliyinin yerli istehsal olunmuş məhsullar hesabına ödənməsi mümkündür. Bunun üçün isə torpaq resurslarından tam və səmərəli istifadə olunmalıdır. Əkin dövriyyəsinə qaytarılmış torpaqlar hesabına heyvandarlığın yem bazasını təşkil etmək və bununla da respublikamızda rəqabətə davamlı heyvandarlıq məhsullarının istehsalına nail olmaq mümkündür. Hazırda yem bazasının kifayət qədər çox olmaması heyvandarlıq məhsullarının baha başa gəlməsinə səbəb olur ki , bu da idxal olunan məhsullarla rəqabətdə daha zəif mövqedə durmağa gətirib çıxara bilər. Yem məhsulları ölkə ərazisində də istehsal olnuna bilər. Bunun üçün son illərdə bir sıra kompleks dövlət tədbirləri həyata keçirilmişdir. Ona görə ki daxili istehsalın düzgün şəkildə həyata keçirilməsi xarici bazardan asılılığın aradan qaldırılmasına səbəb olur, həmçinin ölkənin ərzaq təhlükəsizliyini təmin edir.

Azərbaycanda yerli məhsul istehsalı barədə danışarkən  şəkər çuğundurunun istehsalı və emalı müəssisəsi olan İmişli Şəkər Zavodunun fəaliyyəti barədə bir sıra araşdırmaları qeyd etmək olar.

Qədim zamanlardan şəkər çuğundurunun istehsalı geniş yayılmışdır. Şəkər çuğundurunda saxarozanın olduğunu müəyyən etdikdən sonra onun  sənaye

əhəmiyyətli olduğu müəyyənləşdi və nəzərə alınmağa başladı. Şəkər çuğunduru bitkisinin tərkibində şəkərli maddənin olması və maddənin şəkər qamışının tərkibindəki şəkərə bənzər olduğu ilk dəfə Marqqraf  tərəfindən kəşf edilmişdir.

Ümumiyyətlə ilk dəfə çuğundurun becərilməsi bizim eradan əvvəl üçünçü minillikdə ön və Orta Asiya, Aralıq dənizi və Qara dəniz ətrafındakı ölkələrində həyata keçirilmişdir..

**Çuğundurçuluq** – bitkiçiliyin bir hissəsi olmaqla şəkər sənayesi üçün əhəmiyyətli rola sahibdir. Respublikada şəkər çuğunduru yeganə bitkidir ki, ondan şəkər istehsal olunur. Bu bitkinin müasir sortlarının tərkibində 15-19% şəkər mövcuddur, şəkər çuğundurunun emalı zamanı 100 kg kökümeyvədən 10-12 kg şəkər, 85 kg şəkəri çıxarılmış çuğundur yarpağı və 4-6 kg şəkərsiz nişastadan mürəkkəb maddə  alınır.

Azərbaycanda şəkər çuğundurundan şəkər alınması məqsədi ilə fəaliyyət göstərən zavod inşa edilmişdir, bu zaavod İmişli şəhərində yerləşən İmişli Şəkər Zavodudur. İmişli Şəkər Zavodunun inşasına 2003-cü ildə, ümummilli lider Heydər Əliyevin göstərişi ilə başlanılmışdır. Ulu Öndərin 2 mart 2001-ci il tarixli "Ərzaq təhlükəsizliyi haqqında" sərəncamından sonra İmişli rayonunda ölkədə ilk şəkər zavodunun inşasına başlanıldı. İmişli şəkər zavodunun inşası və istifadəyə verilməsi ölkədə əhalinin əmək fəailiyyətinə kifayət qədərmüsbət təsirini göstərdi və göstərməkdədir. Eyni zamanda emal müəssisəsi olan şəkər zavodunun fəaliyyətə başlaması ölkədə kənd əməkçilərinin əkin dövriyyəsindən xaric olunmuş torpaq sahələrinin əkin dövriyyəsinə yenidən qaytarılmasına sövq eledi, rəqabətə davamlı şəkər istehsalına şərait yarandı. İmişli şəhərində 70 hektar ərazidə qurulan müəssisəyə başlanğıc mərhələdə 85 milyon ABŞ dolları məbləğində investisiya ayrılmışdır.

23 mart 2006-cı ildə İmişli Şəkər zavodunun açılışı oldu. Bu gün İmişli Şəkər Zavodu regionun iqtisadi inkişafında və sənayeləşməsində vacib rola sahibdir.

**Cədvəl 3. "Azərbaycan Şəkər İstehsalat Birliyi"-in standartlar üzrə sertifikatları.**

| Sertifikatın adı | Sertifikatın nömrəsi |
|---|---|
| Uyğunluq sertifikatı | AZS TŞ 10053 – 2008 |
| Uyğunluq sertifikatı | QOST 13456 – 82 |
| Gigiyenik sertifikat | № az 031 1838 QOST 22-94 |
| Sertifikat | AZS TŞ 9979 – 2008 |

2012-ci ildən müəssisədə Kəllə Qənd fabriki istifadəyə təqdim olunmuşdur. Kəllə Qənd fabrikində isə ölkə əhalisinin qəndə olan tələbatını təmin etmək üçün kəllə qənd istehsal edilib təqdim olunur. Kəllə qəndin istehsalında da müasir istehsal texnologiyalarından istifadə edilir.

Fabrikin istehsalat prosesi və onun fəaliyyəti aşağıdaki mərhələ proseslər üzrə həyata keçirilir.

*1. Çuğundurun qəbulu.* Fabrikdə çuğundur silosları adlanan betonla örtülmüş çuxurlara zavoda gətirilən çuğundurlar boşaldılır və həmçinin istehsalata daxil olmamışdan əvvəl müəyyən müddət çuğundurların həmin siloslarda saxlanılması nəzərdə tutulmuşdur. Çuğundurlar həmin ərazidən istehsalat prosesinə yüksək təzyiqli su vasitəsi ilə daxil olunur. Zavodun iki ədəd silosu vardır. Zavodda saatda 200 ton çuğundur istehsalata vermək fabrikin istehsal gücünə uyğundur.

*2. Avtomatika və prosesə nəzarət.* İmişli Şəkər Zavodunda istehsal prossesinin avtomatlaşdırılması layihəsi hal-hazırda nəzərdə tutulmuş dərəcədə avtomatlaşdırılmışdır. İstehsal prossesinin hər bir mərhələsində şərbətin keyfiyyət göstəricilərinə uyğun emal olunub olunmamağı avtomatik cihazlarla ölçülərək qiymətləndirilir. Bu cihazlar real dəyərləri qəbul edilmiş standartlarla müqayisə

edərək cihazlara vacib əmrləri göndərir və texnoloji rejimin iş prinsipinə nəzarət edir. Texnoloji prosesdə istəfadə olunan bu cihazlar Türkiyə, Almaniya, İngiltərə, və Ukraynada istehsal olunmuşdur və ölkəmizdə tətbiq olunması ekspertlər tərəfindən uyğun bilinərək istifadə edilməkdədir.

Ölkə daxilində kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqla ixracını genişləndirmək eyni zamanda xarici bazarda rəqabətədavamlı məhsullar təqdim etmək üçün məhsulların qablaşdırılması saxlanması və reklam işlərinə xüsusi diqqət ayrılmalıdır. Bu sahədə məqsəd və hədəflərə nail olmaq üçün ixracata stumul yaradan tədbirlər hazırlanın reallaşdırılmalıdır. Bunları həyata keçirmək üçün ölkəmiz aqrar sektora əhəmiyyətli dərəcədə vəsaitin ayrılmasına yardımçı olur. Bu sahəyə cəlb olunmuş vəsaitlərin aqrar-ərzaq kompleksinin inkişafına yönəldilməsi düzgün strategiyanın göstəricisidir.

Aqrar sektora dövlət tərərindən vəsaitlərin cəlb olunması qanunvericilik aktlarında aşağıdakı qeyd olunan müddəaları özündə əks etdirir:

- yeni texnikaların kənd təsərrüfatında tətbiqi üçün alınmasına yönəlmiş investisiya prosesinə kömək göstərilməsi;
- kənd təsərrüfatı məhsullarının əkinində istifadə olunan yeni toxum sortlarının və heyvandarlıqda yeni cinslərinin ölkəyə gətirilməsinə dövlət tərəfindən uyğun proqram daxilində yardım göstərilməsi;
- əkinçilikdə torpaqları münbitliyinin gücləndirilməsi  məqsədilə davamlı şəkildə meliorasiya tədbirləri ilə təmin edilməsi
- əkinçilik və ya bitkiçilikdə məhsullara ziyan vura biləcək ziyanvericilərə qarşı mübarizəni həyata keçirən tədbirlərin reallaşdırılması
- kənd təsərrüfatının istər heyvandarlıq istərsə də əkinçilik sahələrində infeksion xəstəliklərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi;
- yanacaq və enerji daşıyıcılarının əldə olunması ilə əlaqədar olan iqtisadi xərclərin çox hissəsinə güzəştin təşkili;

- aqrar-ərzaq sektorunda kənd təsərrüfatı fəaliyyəti ilə məğul olan iqtisadi subyektlərin ixtisaslaşmış kadrlar olaraq yetişdirilməsi;
- kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan iqtisadi subyektlərə istehsalat prosesində güzəştli kreditlərin təklif olunması;
- kənd təsərrüfatı və ərzaq məhsulları bazarının inkişafına müsbət təir göstərən halların nəzərdə tutulması və diqqət ayrılması.

Ölkədə müəyyənləşən qanunvericilik bazası ölkənin kənd təsərrüfatı sektorunun inkişafına münbit  şərait yaratmalıdır ki, ölkə iqtisadiyyatının inkişafının da əhəmiyətli dərəcədə surətlənməsinə şahid olmaq mümkün olsun. Ölkəmizdə yaradılmış hüquqi normativ baza da kənd təsərrüfatı mallarının istehsalın inkişafına uyğun qurulur. Hal-hazırki qanunvericilik bazası da aqrar sektorun ilbəil inkişafını təmin etməlidir. Həmçinin də dövlət mövcud normativ hüquqi bazanı hal hazırki dövrün tələblərinə müvafiq olaraq uyğunlaşdırmalı və inkişaf etdirməlidir.

## 2.3 Azərbaycanda kənd təsərrüfatının inkişaf dinamikası, regional yerləşmə xüsusiyyətləri

Qeyri-neft sektorunun kifayət qədər güclü potensiala sahib olan sektorlarından biri də məhz kənd təsərrüfatı sahəsidir. Kənd təsərrüfatına diqqətin ayrılması nəyinki bu sahədə məhsul istehsalına və ixracına təkan verərək ölkə iqtisadiyyatına müsbət təsirini göstərir, eləcə də bu sahədə ölkə əhalisinin məşğulluna səbəb olur ki, bu da əhalinin daha yaxşı həyat şəraitinə sahib olmalarına yardımçı olur. Ölkəmiz kənd təsərrüfati məhsullarında ixrac qabiliyyətina sahibdir, sadəcə olaraq bu potensial ehtiyatlardan düzgün şəkildə istifadə etmək gərəkdir. Dünyada ərzaq məhsullarına görə daxili tələbatı qarşılamaq bir çox inkişaf etmiş ölkələrin iqtisadi strategiyalarında əhəmiyyətli yer tutur, çünki düşünürlər ki, ərzaq təhlükəsizliyi ölkə və onun əhalisi üçün vacib faktorlardandır. Ölkəmiz müstəqilliyə qovuşduqdan sonra

aqrar mədəniyyətin yaxşılaşdırılması istiqamətində xarici investorların cəlb edilməsi, kənd təsərrüfatı sahəsinin ixrac potensialının genişləndirilməsi, kənd ərazilarində dövlət tərəfindən bu sahəyə maddi dəstəyin həyata keçirilməsi gərək olmuşdur. Bütün bunlara baxmayaraq əvvəl də qeyd etdiyim kimi ölkəmizin kənd təsərrüfatı üçün potensial imkanlara baxmayaraq hələ də tam inkişaf vəziyyətinə sahib ola bilməmişdir.

Azərbaycanın iqtisadiyyatının neftdən asılılığını aradan qaldırmaq məqsədi ilə kənd təsərrüfatının inkişaf eletdirilməsi ölkə iqtisadiyyatçılarının diqqət ayırdığı başlıca sahələrdəndir. Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı qeyri-neft sektorunun prioritet sahəsi olub ölkədə əsas istehlak malı olan ərzaq məhsullarının bilavasitə və dolayısı ilə təşkilini və təmini həyata keçirir.

Kənd təsərrufatı ölkənin siyasi problemlərinin həllində və eləcə də yaşayış yeri bölgələr olan ölkə sakinlərinin məşğulluğunda müstəsna rola sahibdir. Dünyada baş verən bəzi probləmlər iqtisadi bacımdan da özünü göstərdiyi kimi bilavasitə ölkə əhalisinin digər sektorlarda işini itirərərək məhz kənd təsərrufatı ilə məşğul olmasina səbəb olur.

Rəspublikamızda kənd təsərrufatında əməktutumlu sahələrə önəm verildiyi üçün əhalinin iş potensialından istifadə etməyə gərək olur, buda təbiiki əhalinin həyat səviyyəsinə müsbət təsir göstərən faktorlardandır.

Respublika  ərazisində müstəqillik illərində kənd təsərrufatının iqtisadiyatına nəzər saldıqda 1992-1995-ci illər müdddətində hər il kənd təsərrufatında məhsul istehsalı orta hesabla 13 faiz aşağı düşmüş, 1996-cı ildən etibarən tədricən artmışdir. 2005-ci ildə bu artım 6.6 faiz təşkil etmişdir. Regionlarda 2015-ci ilə göre heyvandarlıq sahesinde olan artım 2.5% , bitkiçilik üzrə 11.3% qeydə alınmışdır.

Yem bazasının zəif olması heyvandarlıqda inkişafı ləngidən səbəblərdəndir. Heyvandarlıqda yem catızması problemini həll ədərkən idxal məhsullarından istifadə olunurki bu da sahənin rentabellik dərəcəsinə ciddi təsir göstərir. Son illərdə quşçuluq

sahəsində yaranan problemlər buna nümunə göstərmək olar. Yem çatısmazlığı dünya üzərində yem məhsullarının ixracına təkan verir. Dünya üzrə yemə tələbatın artması Azərbaycanda da bu sahənin inkişafına, onunla bağlı bəzi siyasətlərin düşünülməsinə və yerinə yetirməsinə zərurət yaratmışdır. Ümumiyyətlə Azərbaycanda kənd təsərrufatı sahəsində davamlı şəkildə artımın olması gözlənılir. 2016-cı ilin statistikası göstərir ki, Azərbaycanda ÜDM- in azalmasına baxmayaraq kənd təsərrufatında 3.1% artım müşahidə olunmuşdur. Onu da qeyd etmək istərdimki, bu muddət ərzində istəhsal ədilən kənd təsərrufatı məhsullarının 57.4 faizini heyvandarlıq, 42,6 faizini isə bitkiçilik sahəsinin üzərinə düşür.

2015-ci ildə Kənd təsərrufatı məhsullarının ixracında meyvə tərəvəz məhsullarının ixracı 312 milyon dollar olmuşdur. 2016-cı ilin yanvar- iyul aylarında 190.2 dollar dəyərində kənd təsərrufatı malları ölkədən ixrac olmuşdur.

Regionlar üzrə müqayisədə taxılın əsas hissəsi Aran bölgəsində yetişdirilir.Belə ki, 2009-cu ildən digər regionlarda da,yəni Gəncə,  Qazax, Lənkəran, Quba, Xaçmazda, Dağlıq Şirvan və Naxçıvan regionunda taxıl əkininin səviyyəsi azalmışdır.

Tərəvəzçilik ölkənin aqrar sahəsində geniş inkişaf edən sahələrdəndir. Tərəvəz istehsalı Şəki-Zaqatala, Aran, Şirvan və Naxçıvan zonalarında son illər artmış, digər regionlarda isə azalma qeydə alınmışdır. Hazırda tərəvəz əsasən Aran, Lənkəran, Gəncə-Qazax, Quba-Xaçmazda istehsal olunur. Kartofçuluq ölkədə əsas istehsallardan hesab olunur. Ölkənin hər regionunda kartof becərilsə də onun əsas bazası Gəncə-Qazax zonası göstərilir.

Meyvəçilik də ölkənin istehsalında xüsusi çəkiyə malikdir. Getdikcə Respublikada meyvəçilik inkişaf sürətini almışdır. Meyvə bağlarının böyüdülməsi, ağaclara qulluq işlərinin səmərəli aparılması məhsuldarlığı artırır, istehsal sürətlənir. Əsasən Respublikanın hər bir regionunda meyvə yetişdirildiyinə baxmayaraq, meyvəçiliyin məskəni Quba-Xaçmaz, Aran, Şəki-Zaqatala, Gəncə-Qazax zonasıdır. Aqrar islahatların sayəsində Respublikada heyvandarlığın inkişafı getdikcə sürətlənir.

Heyvandarlığın baş hesabı ilə bütün bölgələr üzrə artması heyvandarlığ məhsullarının da güclü artmasına səbəb olmuşdur.

Dövlətin hazırki  aqrar siyasətinin vacib vəzifəsi əhalinin fərqli çeşidli, əla keyfiyyətli, xeyli ucuz ərzaq və istehlak məhsulları ilə səmərəli şəkildə təminatını başqa sahələrin aktiv fəaliyyətində gərəkli olan xammalla yüksək formada təmin olunmasını xarici dövlətlərlə əlaqə və maraqlarının yerinə yetirilməsini gərəkli aqrar bazarının mükəmməl yaradılmasını əhatəli aqrar sənaye istehsalını təkmilləşdirməkdən ibarətdir.  Xalqın istehlak mallarına artan tələbatının xeyli hissəsinin daxili istesal gücünə təmin edilməsini sənaye sahələrinin tələbatının əsasən yerli xammalla təminatını yaratmaq dövlətin müvəffəqiyyətli aqrar siyasətinin nəticəsidir. Digər tərəfdən dövlətin uğurlu aqrar siyasəti ölkəyə xaricdən idxal olunan keyfiyyətsiz, sağlamlığa ziyan vuran məhsullarının son dərəcə azaldılmasına Respublikanın digər ölkələrdən ərzaq məhsulları asılılığının getdikcə məhdudlaşdırılmasına, daxili bazarın xarici bazardan üstün gəlməsinə imkan yaradır.

Qeyd etmək lazımdır ki, ölkədə gedən müasir aqrar siyasət aqrar bazarın real forma almasına geniş fəaliyyət imkanına istiqamətləndirməklə bərabər,həmçinin kənd təsərrüfatı sahəsinin istehsal iqtisadi fəaliyyətinin daha da genişləndirilməsinə,həmin sahədə çətinliklərin aradan götürülməsinə daha müasir üsullardan istifadə olunmasına xidmət edir. Beləliklə, bütün bunlara nəzərən aqrar sferada aşağıdakılara əməl olunması vacibdir. Aqrar sferada sahibkarlıq fəaliyyətinin keyfiyyətini artırmalı,müxtəlif təsərrüfat növlərinin inkişaf etdirmək, istehsalçılarla istehlakçılar arasında iqtisadi münasibətlər keyfiyyətli təşkil olunmalı, doğru formalaşmalıdır. Bütün regiona məxsus olan sərvətlərdən,maliyyə vəsaitindən düzgün istifadə edilməli,işsizlik aradan qaldırılmalıdı. Aqrar sahədə iqtisadi sistem formalaşmalı, maliyyə, vergi, sığorta düzgün təşkil olunmalı. Dövlət subsidiyaları öz istiqamətinə yönəldilməli, xidmətlərin keyfiyyəti artırılmalı, aqrar bazarın əhatəsi artırılmalıdır,idarəetmə təkmilləşməlidir. Aqrar sferada dövlətin ən başlıca maraqları bütün hallarda təmin olunmalı, istehsalın artım sürəti,istehsal məhsullarının tədarükü,

daşınması, emalı, satışı, saxlanması dəqiq əhatələnməlidir. Ölkənin hazırki aqrar siyasətinin iqtisadi yüksəlişində böyük əhəmiyyət kəsb edən aqrar bazarın mükəmməlləşməsində vacibliyi diqqətdə saxlanılaraq aqrar bazarın infrastrukturunun əhəmiyyətli dərəcədə dəqiq təşkil olunmasına hər sahədə kömək olunmalıdır.

İnkişaf etmiş ölkələrin uzunmüddətli eksperimenti nəticəsində görünür ki,dövlət aqrar siyasət vasitəsilə iqtisadi və hüquqi bərabərliyin təminatını qorumalı,aqrar sahədə azad rəqabət şəraitinin yaradılmasına hüquqi yardım etməlidir. Əsasən bütün bunlarla yanaşı dövlət iqtisadiyyatın hər sahəsinin və eləcə də,inkişaına gərəklik duyulan hər sahənin genişləndirilməsi məqsədilə sahibkarların maliyyə vəziyyətinin düzəlməsi üçün lazımi tədbirlərdən istifadə etməlidir. Ölkədə aqrar bazarın düzgün istiqamətdə əhatələndirilməsi yerli istehsalın əlverişli və dəqiq formalaşdırılmasından asılıdır. Xarici rəqabətin lazımsız təsirləri aradan qaldırılmalı,məhsulun kəmiyyət və keyfiyyət parametrlərinə maraq həmişə artırılmalıdır. Dövlətin aqrar siyasəti birmənalı olaraq iqtisadi sistemlərin növündən, aqrar sektorun hal-hazırki durumundan asılı olaraq yerinə yetirilir. Qeyd etmək lazımdırki,ölkədə aqrar siyasətin qurulması aşağıda göstərilən mərhələlərdə əhatələnmişdir.

İqtisadiyyatın bu mərhələsində aqrar sektorun inkişafı, aqrar bazarın təkmilləşdirilməsi ilə əlaqədar lazimi hüquqi normativlər əsaslı surətdə işlənmiş,aqrar sektorda həyata keçirilən istehsal və xidmət sahələri özəlləşdirilmiş. İstehsal olunmuş məhsulların həcminin stabilləşməsi reallaşdırılmışdır. Eyni zamanda sadalanan sahələr arasında

ən başlıcası odur ki, əsaslı texnologiyanın tətbiq olunması nəticəsində aqrar bazarda istehsal miqdarı xeyli artırılmış, ərzaq bazarda qiymətlərin aşağı salınması etibarı ilə sahibkarların xərclərinin bir qisminin dövlət tərərfindən subsidiya şəklində ödənilməsi həyata keçirilmişdir.

Xarici təcrübələrdən görünür ki, aqrar siyasət intervalında ərzaq resurslarının təşkil olunması ilə əlaqədar lazımi qərarlar paketinin işlənməsi əhəmiyyətli dərəcədə vacibdir. Beləliklə önəmli olaraq istehsalçılara satış yollarının axtarılıb tapımasında

sərbəstliyin verilməsi, ərzaq bazarında sahə və regionlar arasında əlaqələrin təkmilləşməsinə kömək edilməsi, müqavilə şərtində məhsulların tədarük edilməsinə hüquqi təminatın təşkil edilməsi, dövlət daxilində ərzaq resursları fondunun təkmilləşməsi və onun istifasinə nail olunması, regionlarda yeni iş yrlərinin açılması istiqamətində görünən işlər və s. aiddir. Bütün bunlarla paralel olaraq demək olar ki təcrübə nəticəsində aqrar sahənin qarşısındakı tələblərə tamamilə əməl edilməməsi düzgün fəaliyyət prinsipinə riayət olunmaması, ciddi nöqsanların baş verməsi ehtimalı vardır. Çünki bəzən aqrar siyasət prinsipinə dəqiq əməl olunmur, mümkün şəraitlər düzgün dəyərləndirilmir. Belə halların mümkünlüyü aqrar sahədə bazarın təkmilləşdirilməsində, hərtərəfliinkişafında maneə olaraq aalmaqadır. Aqrar siyasətin bəzi məqamlarında ortaya çıxan nöqsanlar əksər hallarda aqrar bazarın əhəmiyyətli dərəcədə fəaliyyətinə maneə olur. Belə səbəblər nəticəsində ona inam azalır, inkişaf səviyəsi aşağı düşür. Hamıya məlumdur ki, istehsal olunan məhsulların satışında xeyli çətinliklər ortaya çıxır. Ona görə böyük zəhmət və ayrılan vəsait sayəsində istehsal olunan məhsulların xeyli hissəsi zay olur, itkilərə səbəb olur. Başqa cür desək emal müəssisələrinin az olması, bir çox növ emal müəssisələrinin standartlara cavab verməməsi hazırkı tələblər çərçivəsində lazımi nəticə əldə etməyə imkan vermir. Uzun illərin təcrübəsi sübut etmişdir ki, aqrar siyasətdə məhsulların realizasiyasının qanunauyğun şəkildə qurulmasına sahibkarların sərbəst iqtisadi fəailiyyət göstərməsinə mümkün qədər şərait yaradılmalıdır. Sahibkarlar tərəfindən istehsal olunan ərzq məhsulları tədarük bazalarına verilməlidir və məhsulların qiyməti dəqiq müəyyənləşdirilməlidir.

## 2.4 Azərbaycanda Kənd Təsərrüfatının potensial sahələri və onların qiymətləndirilməsi

Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının yüksəlməsi, ölkə vətəndaşıarının güzəranının yaxşılaşması, ölkələr arası əlaqələrin lazım olduğu

qaydaya çatdırılçasının vacibliyi, milli iqtisadiyyatın hərtərəfli özəl inkişafının təşkilini əsas vəzifə olduğunu ortaya gətirir. İqtisadi sahədəki bu kimi qanunauyğunluqlar dövlətin vacib istehsal sahəsi olan aqrar sferanıda yüksəlməsini zəruri edir. Ölkə əhalisinin ərzaq və xalq istehlakı malları ilə təmin olunmasında, bir çox xalq təsərrüfatı sahələrinin xammala tələbatında aqrar sahənin rolu mühim əhəmiyyət kəsb edir.

Azərbaycam Respublikasında iqtisadiyyatın hərtərəfli inkişaf etdirmək üçün ilk növbədə dövlət daxili islahatlar prosesində, normativ – hüquqi baza yaradılmış, torpaqlar, əmlaklar özəlləşdirilmişdir. Kənd – təsərrüfatında sahibkarlıq əsas fəaliyyət kimi özunə yer tutmuşdur.

Azərbaycanın aqrar sferasında istehsal bə xidmət sahələri təşkil olinmuşdur. Əhalidə maddi marağın artmasına xidmətlərin yüksəlməsi,istehsalın artması başlıca səbəb olmuşdur.

Kənd təsərrüfatında, tamamilə əmlak və texnikanın, eləcədə torpaq sahələrinin özəlləşdirilərək yerli əhaliyə verilməsi ölkədə gedən aqrar islahatların ən parlaq nümunəsidir.

Beləliklə, bu kimi islahatlar əhalinin səmərəli fəaliyyəti üçün geniş və perispektiv şərait yaratmışdır.

Əmlakın özəlləşdirilməsinin uğurlu aparılması aqrar islahatların düzgun və səmərəli şəraitdə yerinə yetirilməsinin nəticəsidir.

Ölkədə islahatlar çərçivəsində özəlləşdirilən təsərrüfatların əmlakın ümumi dəyərinin 70,9% xüsusi mülkiyyətə, 22,6% bələdiyyə mulkiyyətinə verilmişdir. Dövlət mülkiyyətində isə 6,5% qalmışdır.

Əmlakın müxtəlif növlərinin özəlləşdirilməsində Respublikada uğurlar əldə olunmuşdur. Məsələn, aqrar sahədə istifadə olunan yük avtomobilləri tamamilə bütün ümumi texnika, mal-qara saxlanılan obyektıər, heyvan-otlaq yerləri, özəlləşdirilmiş şəkildə sahibkarların ixtiyarına verilmişdir.

Ümumiyyətlə, Azərbaycanda iqtisadi və planlı sürətdə aparılan tədbirlər sayəsində sahibkarlıq fəaliyyəti xüsusi bir formaya salınmışdır.

2009-cu ildə Azərbaycanda istehsal olunan kənd təsərrüfatı mallarının 93,4%-ə qədəri xüsusi mülkiyyətin payına düşür.

Beləliklə, ölkədə kənd təsərrüfatı sahəsi infilasiya uğramaq təhlükəsindən uzaqlaşmış, sürəyli inkişaf yolundadır.

Sahibkarlığa bə sahibkarlara göstərilən dövlət qayğısı nıticəsində məhsuldarlıq artmışdır.

Azərbaycan Respublikasında əhalinin ərzaqla təmin etmək üçün taxıl, kartof, üzüm, tərəvəz, meyvəçilik, şəkər çuğunduru yetişdirilir. Hər bir məhsul üçün xüsusi əkin sahələri sahibkarların öhdəsinə verilmişdir.

Ölkədə taxıl əkini üçün sahələr getdikcə artırılır. Taxılın məhsuldarlığı hər hektara 26,6 sentner çatdırılmışdır. Tərəvəzçiliyin də aqrar sferada geniş yeri var. Bu sahədə böyük irəliləyişlər var. Meyvəçilik, tütünçülük də inkişaf sahəsində öz yerini tutur.

Heyvandarlıq sahəsində inkişaf son dərəcə yüksəlmişdir. Son illərdə ölkəmizdə heyvanların sayı xeyli artmışdır, heyvandarlıq məhsullarının istehsalı sürətli formada yüksəlmişdir.

Bütun bunlar regionlarda sahibkarların istehsalın yüksəlməsinə olan xüsusi maddi marağından asılıdır.

Regionlarda istehsalın iqtisadi cəhətdən artmasında təbii iqlimin və digər amillərin rolu böyükdür. Deməli, regionlar, iqliminə, istehsalın ixtisaslaşmasına, infrastrukturaya və başqa amillərə görə fərqli xususiyyətlərə malikdirlər. Hər bir regionda torpaq sahələri həcminə, münbitliyinə, infrastrukturasına görə müxtəlifdir. Belə hallar regionların inkişaf səviyyəsinə təsirsiz ötüşmür. Müxtəlif regionlarda əhaliyə düşən əkin sahələri də eyni deyildir. Belə ki, regionlar təşkil edilərkən onların

torpaq sahələri müxtəlif ölçüdə bölünmüşdür. Taxılçılıq təsərrüfatı aran rayonlarında daha çox yer almışdır.

Azərbaycanda kənd təsərrüfatının inkişafı ölkədə keçirilən aqrar islahatlar sayəsində əldə olunmuşdur. Bu islahatlar nəticəsində  bazar münasibətlərinə əsaslanan aqrar sahə yaradılmışdır. Zaman keçdikcə bu kənd təsərrüfatının yeni sahələrinin yaranmaına və inkişafına təkan vermişdir. Bu islahatlar təkcə kənd təsərrüfatı məhsulları istehsalını deyil eyni zamanda kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə istehsalına stimul yaratmışdır. Bu islahatlar əsaslı dəyişikliklərə saəbəb olmuşdur. Sosial və sahəvi olmaqla bu dəyişikliklər böyük təsərrüfat formalarının yerinə müxtəlif xarakterli təsərrüfat subyektləri yaradılmsına gətirib çıxarmışdır. Özəlləşdirmə siyasəti  kənd təsərrüfatında istifadə olunmayan torpaq sahələrinin əkinə cəlb olunmasına şərait yaratmışdır.

Son illərdə kənd təsərrüfatına verilən diqqət nəticəsində ölkədə bir zamanlar yüksək göstəricilərə sahib olmuş lakin yaxın keçmişdə unudulmuş strateji sahə olan pambıqçılıq kimi bir sahəyə böyük maraq yaratmışdır. Özəl kənd təsərrüfatı məhsulları istehsal və emal edən müəssisələr bu sahəyə maraq göstərməyə başlamışlar. Bu sahənin inkişafı ilə əlaqədar olaraq ölkəyə çox sayda kənd təsərrüfatı texnikaları gətirilmişdir (bura torpaq hazırlıqları üçün gətirilmiş traktorlar, aqriqatlar, məhsul toplanması üçün kombaynlar, toplanmış məhsulun saxlanması üçün lazım olan kənd təsərrüfatı avadanlıqlarını misal göstərə bilərik).

Kənd təsərrüfatı praktikada iki böyük qrup sahələrə ayrılır: bitkiçilik və heyvandarlıq. Onların hər biri müxtəlif məhsul istehsal edən müstəqil sahələri əhatə edir. Heyvandarlıq: südlük, ətlik-südlük və ətlik üzrə maldarlıq, donuzçuluq, quşçuluq və s., bitkiçilik isə taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, üzümçülük, tütünçülük və s. kimi sahələri özündə birləşdirir. Kənd təsərrüfatının ixtisaslaşdırılması ölkəmizin ayrı-ayrı iqtisadi rayonlar  üzrə dövlət ehtiyacları və təbii iqtisadi şərait nəzərə alınmaqla, bunlara müvafiq olaraq ayrı-ayrı təsərrüfatlarda ixtisaslaşdırılmış istehsal təşkil edilir. Hazırda ölkəmizdə təbii və iqtisadi xüsusiyyətlərə müvafiq

olaraq taxılçılıq, tütünçülük, pambıqçılıq, meyvəçilik, üzümçülük, çayçılıq, tərəvəzçilik və digər istiqamətli kənd təsərrüfatı rayonları əmələ gəlmişdir. Quba-Xaçmaz, Şəki-Zaqatala, Şirvan, Gəncə-Qazax, Lənkəran-Astara və Naxçıvan Muxtar Respublikasında meyvə-tərəvəz, şərab, çay emalı üzrə istehsal güclərinin çox hissəsi cəmləşmişdir. Respublikada meyvə-tərəvəz, şərab emalı məhsullarının 70%-dən çoxunu bu regionlar verir.

# 3. FƏSIL AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI INKIŞAFININ ƏSAS ISTIQAMƏTLƏRI

Əvvəllər ölkə iqtisadiyyatının aqrar istehsal sferası SSRİ əsasında formalaşmışdır, innovasiya texnologiyalarının ölkəyə gətirilməsi və tətbiqi mümkün olmamışdır. Prezidentimizin göstərişi ilə kənd təsərrüfatının, emal sənayesinin inkişafı ən yeni innovasiya texnologiyaları əsasında qurulur ki, bunun sayəsində də istehsal olunmuş məhsulların əsas üstünlük göstəricisi olan keyfiyyətli məhsulun xüsusi çəkisi artmaqdadır. Bu Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalı ilə xarici bazarlara çıxmaq imkanını artırır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra aqrar siyasətində ASK-nin innovasiya iqtisadiyyatı əsasında qurulması ön plana çəkmişdir. Bunun üçün regionlarda məktəblərin maddi-texniki bazası güclənir, intellektual müəllim kadrları ilə təmin olunur. İnstitutlar çevik kadr hazırlığı sisteminə keçir, mobil elmi-istehsal kompleksi yaradılır.

## 3.1 Azərbaycanda Kənd Təsərrüfatı Sahəsində Innovasiya Siyasəti

Hazırda iqtisadiyyatın bütün sahələrində elmi və texnologiyanın ən son nailiyyətlərindən istifadə olunmaqdadır. Bu yeniliklərin istehsalata tətiqi iqtisadiyyatın inkişafını sürətləndirir. İnnovasiyaların təsərrüfata tətbiq olunması eyni zamanda böyük maliyyə vəsaiti tələb edir.

İqtisadiyyatın bir çox sahələrində olduğu kimi kənd təsərrüfatında da innovasiyaların tətbiq olunmasına geniş yer verilir. Xüsusilə, son illərdə ölkəmizdə, əsasən, xarici istehsal olan kənd təsərrüfatı məhsulları geniş istifadə olunmaqdadır.

Kənd təsərrüftında istifadə olunan texnikaların sahiblarlar tərəfindən asanlıqla əldə olunması üçün dövlət tərəfindən də böyük işlər görülməkdədir. Bura kənd təsərrüfatı texnikalarının asanlıqla ölkəyə gətirilməsini, yerli istehsal olan texnikaların stimullaşdırılasını, lizinq vasitəsilə texnikaların sahibkarlara və fiziki şəxslərə satılmasını misal göstərə bilərik. Aqrolizinq ASC tərəfindən böyük sayda kənd təsərrüfatı texnikaları və avadanlıqları sahiblarlara və kənd təsərrüfatı ilə məşğul olan fiziki şəxslərə  satılması həyata keçirilmişdir. Bütün bunlar dövlətin aqrar sahəyə diqqətinin və aqrar istehsalın artırılmasının stimullaşdırılmasının göstəriciləridir. Müxtəlif markalı kənd təsərrüfatı texnikaları istehsal edən xarici şirkətlərin nümayəndəlikləri və distrubyutorları ölkəmizdə fəaliyyət göstərməkdədir. Ölkəmizdə dünyanının kənd təsərrüfatı texnikaları istehsalında öz sözünü demiş John Deere, Class, Maschio Gaspardo, Ünlü, Will-rich, Checci Magli, Faresin, New-Holland, Landini, Ploeger, Belarus, Agrifac, Holmer, Sandei, Corima kimi şirkətlərin məhsulları ölkəmizdə kənd təsərrüfatı subyektləri tərəfindən əldə olunur və istehsalata cəlb olunur. Bu böyük şirkətlərin məhsullarının ölkəmizə gətirilməsi və istehlakçılara güzəştli şərtlərlə təqdim olunması dövlətin uğurlu innivativ siyasətinin nəticəsində əldə olunmuşdur. Xarici istehsal texnikalar əsasən İtaliya, ABŞ, Almaniya, Hollandiya Türkiyə, İran istehsalı, yerli istehsala isə Belarus markalı traktorları misal göstərə bilərik. Gəncədə Belarus traktorların istehsalı həyata keçirilməkdədir.

Azərbaycanda torpaq və istehsal resurslarının məhdud olması əsas və dövriyyə vəsaitlərinin qiymətinin daim qalxması kəndli-ailə təsərrüfatlarını keyfiyyətli məhsul istehsal etməklə daxili və xarici bazarda üstün yer tutmağa yönəldir.

İnnovasiya siyasəti nəticəsində kənd təsərrüfatına müasir texnologiyanın tətbiqi həm heyvandarlığın, həm də əkinçiliyin intensiv inkişafına səbəb olur. Bu proseslər az məhsuldar mal-qaranın sayının azaldılması və yüksək məhsuldar cins heyvandarlığın inkişaf etdirilməsinə səbəb olmuşdur. Belə innovasiyalar təkcə heyvandarlıqda deyil eyni zamanda əkinçilikdə də tətbiq olunmaqdadır. Sənaye üsulu

ilə kənd təsərrüfatı məhsulları istehsalında daha çox innovasiya tövhələri tətbiq olunur. Ölkəmizdə fəaliyyət göstərən "Gilan Holdinq", "Azərsun Holdinq", "PMD Group" kimi kənd təsərrüfatı böyük istehsal payına sahib olan şirkətlər fəaliyyət göstərməkdədir. "Gilan Holdinq", "Azərsun Holdinq" eyni zamanda konserv məhsulları istehsalı sahəsində də böyük nəticələr əldə etmişdirlər. Onların istehsalı olan məhsullar ölkəmizlə bərabər xaricə də ixrac olunmaqdadır. Bu məhsullar dünyanın bir çox ölkələrinə ixrac olunmaqdadır. ABŞ, Almaniya, Rusiya, Gürcüstan, Orta Asiya ölkələrinə ixrac olunan kənd təsərrüfatı məhsullarının istehsalında elm və texnikanın müasir nailiyyətlərində istifadə olunmaqdadır.

Kənd təsərrüfatı məhsulları istehsalı zamanı eyni zamanda onların keyfiyyətinə çox bğyük önəm verilir. Çünki bu məhsulların böyük əəksəriyyəti qida xarakteri daşımaqdadır. Qida məhsullarının bir hissəsi sənaye istehsalına məruz qalmaqdan birbaşa olaraq tarladan süfrəyə gəlir. Bəziləri isə sənaye istehsalına məruz qalır. Hər iki qida xarakteri daçıyan kənd təsərrüfatı məhsullarının istehsalına innovasiyanın tətbiqi onların məhsuldarlığının yaxşılaşdırılmasına yönəldiyi kimi eyni zamanda keyfiyyətinin yaxşılaşdırılmasına da yönəlir. Çünki ilk öncə vacib olan və istehlakçını maraqlandıran istehlak etdiyi məhsulun sağlam olmasıdır. Sağlam olmayan və ya xəstəlik yaratma xarakteri daşıyan məhsullar məlumatlı istehlakçıların marağına səbəb olmur. Burdan belı çıxır ki, innovasiyalar məhsul istehsalının keyfiyyətinin də yaxşılaşdırlmasına yönəldilir. Son dövrlərdə geni modifiasiya olunmuş məhsulların istehsalı artmaqdadır. Qida təhlükəsizliyinin idarə edilməsi sistemlərinin düzgün işləməsi bu səbəbdən önəmlidir. Bu sahədə ölkəmizdə bir sıra işlər görülmüşdür. Hüquqi baza Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmış, Ümumdünya Ticarət Təşkilatı ilə əlaqələrin genişləndirilməsi və bu kimi işləri dövlətimizin gördüyü müsbət hal kimi qiymətləndirə bilərik. Ölkə daxilində keyfiyyətə nəzarət etmək üçün bir sıra qurumlar vardır ki, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsini, Dövlət Fitosanitar Nəzarət Xidmətini bura aid edə bilərik.

Eyni zamanda keyfiyyət məhsulun rəqabət qabiliyyətliliyini müəyyən edir. Gündə on tonlarla bu kimi yeni qida məhsulları müxtəlif şirə, fanta, koka-kola, ayran və digər içkilərlə istehlak olunur. Hazırda tam müxtəlif adda və keyfiyyətdə quru səhər yeməklərinin Avropa ölkələri, Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrdən ixrac olunması göstərir ki, həmin ölkələrdə göstərilən məhsuların yeni istehsal sənayesi innovasiya texnika və texnologiyası, dövlət keyfiyyət standartları yaranmışdır. İndi sağlam və inkişaf etmiş gələcək intelektual nəslin formalaşması üçün sağlam və təhlükəsiz ərzaq məhsullarının istehsalı və ölkənin ərzaq təhlükəsizliyinin qorunması dünyavi miqyas almış prioritetlərdəndir.

Dövlətimiz keyfiyyətli kənd təsərrüfatı məhsulu istehsalı siyasətini həyata keçirmək üçün çox gözəl şərait yaratmışdır. Bazar infrastrukturunda eyni məhsulun bolluğu şəraitində inhisardan azad rəqabət mühiti yaradılır. Bunu kənd təsərrüfatı sahəsində ölkəmizdə fəaliyyət göstərən təşkilatları və əhalini göstərməklə bilmək mümkündür. Təklif olunan məhsulların keyfiyyəti dövlət nəzarəti ilə keyfiyyətin idarə olunması təmin olunur. Bu yuxarıda adı çəkilən dövlət müəssisələri tərəfindən həyata keçirilir. İstehsal mühitinin ekoloji şəraitinin sağlam olması üçün investisiya qoyluşunu artırır. Dövlət bu sahəyə vergilərin güzəştli olmasını təmin edir. Aşağı faizlərlə kreditlərin verilməsi üçün bankları stimullaşdırır. İnnovasiya texnologiyaları əsasında mineral və enerqetika resursları artırılır.

Kənd təsərrüfatında innovasiyaların tətbiqi üçün dövlət elmin inkişafına xüsusi diqqət yetirir. Universitetlərdə aqrar yönümlü kafedraların yaradılması həyata keçirilir. İqtisadi yönümlü ixtisaslara aqrar fənnlər keçilir. Ən başlıcası Gəncə şəhərində savadlı aqrar sahənin mütəxəssislərini yetişdirmək üçün bir ali təhsil müəssisəsi – Azərbaycan Dövlət Aqrar Universiteti və bir çox texniki peşə məktəbləri fəaliyyət göstərirlər. *“Azərbaycan Kənd Təsərrüfatı İnstitutu nəinki yüksəkixtisaslı kadrlar hazırlamalı, həm də respublikada kənd təsərrüfatını daha da inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır”*- bu sözləri ümummilli lider

Heydər Əliyev demişdir. Bu ölkədə aqrar sahədə savadlı kadrların yaradılmasına verilən böyük diqqətin göstəricisidir.

## 3.2 Azərbaycanda Kənd Təsərrüfatı Sahəsində Investisiya Siyasəti

Ölkə iqtisadiyyatının qeyri neft sektorunun əsas pay sahiblərindən olan kənd təsərrüfatında investisiyaların əvəzsiz rolu vardır. İnvestisiyasız bazar iqtisadiyyatını təsəvvür etmək mümkün deyildir. İnvestisiya təsərrüfat həyatının vacib elementi hesab olunur. Çünki birbaşa olaraq təsərrüfatın gələcəyi ilə bağlıdır. Sərmayə qoyuluşu olmadan təsərrüfatın inişafından əlavə heç mövcudluğundan belə söhbət gedə bilməz. Azərbaycan Respublikasının «İnvestisiya fəaliyyəti haqqında» qanununda göstərilir ki, investisiya gəlir və ya səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Investisiya mənfəət və ya səmərə əldə etmək məqsədilə dövlətin, hüquqi və fiziki şəxslərin, torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan yeni müəssisə və təsərrüfatların yaradılmasına, fəaliyyətdə olan müəssisələrin genişləndirilməsinə, tərpənməz əmlakın, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, aktivlərin əldə edilməsinə yönəldilən pul vəsaiti, əmlak və intellektual dəyərləri deməkdir.

İnvestisiyaların yaranması gəlirdən asılıdır. Çünki əhalinin gəliri olmasa və ya lazımi səviyyədə olmasa onlar yığım və dolayısı ilə investisiya edə bilməyəcəklər. Gəlirlər imkan verməlidir ki, insanlar öz ehtiyaclarını qarşılasınlar və bundan sonra investisiya edə bilsinlər. Eyni zamanda investisiya etməkdə məqsəddə gəlir əldə etməkdir.

Aqrar sahədə investisiyalar fərqli formalarda özünü göstərir. Kənd təsərrüfatı müəssisələrinin qiymətli kağizlarına yönəldilən portfel investisiyaları və material və qeyri material aktivlərə pulun yönəldilən real investisiyalar fərqləndirilir.

Dövlət tərəfindən aqrar sahədə investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə bir çox işlər görülür. Bura vergi güzəştlərini misal göstərə bilərik. Regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində aqrar sahəyə investisiyaların qoyulmasına stimul yaradılması üçün bir çox işlər görülmüşdür. Dövlət investorları bu sahəyə cəlb etmək üçün onlara hiss etdirmişdir ki, kənd təsərrüfatı dövlətin diqqət mərkəzindədir və qeyri-neft sektoru kimi onun inkişafı çox önəmlidir. Bunun nəticəsidir ki, ölkəmizdə son illərdə kənd təsərrüfatının inkişafı sürətlə artmaqdadır. Ölkədə kənd təsərrüfatının əkinçilik sahəsi üzrə çox böyük miqdarda uzun illər əkindən kənarda qalmış torpaqlar yenidən əkin üçün yaralı hala gətirilmişdir. Ən son olaraq bu görülən işə misal olaraq biz Biləsuvar rayonunda "Azərsun Kənd Təsərrüfatı Məhsulları MMC"-yə məxsus 1000 Ha torpaq sahəsinin əkinə hazrlanmasını qeyd edə bilərik. Bu sahədə artıq ilk əkin belə həyata keçirilmişdir. Torpaqların su ilə taminatı işləri isə hal hazırda davam etməkdədir. Bu cür hadisələr onun göstəricisidir ki, dövlət aqrar sahənin inkişafı üçün sahibkarları inandırmağı bacarır. Onları uzun illər əkilməmiş sahələri əkinə yararlı hala gətirməyə sövq edir.

Aqrar bölmənin son dövrlərdə inkişafdan geri qalmasının aradan qaldırılması bu sahəyə dövlətin böyük dəstəyinin və uğurlu dövlət tənzimlənməsinin nəticəsində olmuşdur. Azərbaycan iqtisadiyyatının son dövrlərə qədər neft sektorundan asılılığının aradan qaldırılması üçün kənd təsərrüfatına böyük dəstək göstərilmişdir. Bu dəstək hazırda da davam etməkdədir. Buna belə bir misal göstərə bilərik ki, «Aqrar islahatın əsasları haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilir: «Aqrar bölmə iqtisadiyyatın vacib sahələrindən biri kimi dövlət himayəsindədir. Dövlət himayəsi aşağıdakı istiqamətlərlə müəyyən edilir: - aqrar sahəyə investisiya qoyuluşunun stimullaşdırılması...».

Kənd təsərrüfatına dövlət təstəyinin vacib elementlərinə vergi güzəştlərinin tətbiqi, təminatlı daxili bazarın yaradılması, xarici bazara çıxmaq üçün müəyyən imtiyazların verilməsi, işçi qüvvəsinə tələbatın ödənilməsi, həmçinin istehsal və sosial infrastruktura dövlət yardımı,dövlətin kredit siyasəti aiddir.

Aqrar bölməyə investisiya qoyuluşundan investorları çəkindirən bir sıra səbəblər vardır ki, bunlardan ən önəmlisi bu bölmənin risk payının çox olmasıdır. Cünki, kənd təsərrüfatı təbii, ekoloji və ətraf mühitin mühafizəsi ilə bağlı amillərdən asılıdır. Məlumdur ki, kənd təsərrüfatının başlıca istehsal vasitəsi torpaqdır. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi torpaqdan necə istifadə edilməsindən asılıdır. Buna görə də torpaqdan düzgün istifadə edilməsi kənd təsərrüfatı məhsulları istehsalçılarının qarşısında duran əsas vəzifədir. Kənd təsərrüfatının davamlı intensivləşdirilməsinin mühüm yollarından və yaxud şərtlərindən biri bu sahəyə kapital qoyuluşlarının artırılmasıdır. Bu sahəyə lazımi səviyyədə kapital qoyuluşları olmadan kənd təsərrüfatı məhsullarının istehsalının sənaye əsaslarına keçirilməsi və əhalinin ərzaq məhsullarına, sənayenin isə kənd təsərrüfatı xammalına getdikcə artan tələbatını ödəmək qeyri mümkündür.

Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan iqtisadi subyektlərə dövlət tərəfindən müddətli vergi güzəştlərinin tətbiqi 2001-ci ildən başlanmışdır və 14 il  davam edən bu siyasət indiyədək 1.6 milyard manat vəsaitin fermerlərdə qalmasına və  həmin vəsaitin təkrar istehsalın inkişafına yönəldilməsinə imkan verimişdir. Nəticədə istehsalın həcmi 4,8 dəfə artıb. Bu 2001-ci il 27 noyabr tarixində Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu imzalaması ilə başlandı. Aqraq sektorda tətbiq edilən güzəşt mexanizmi sahibkarların xərc problemlərinin aşağı düşməsinə gətirib çıxarmış və mülkiyyətçilər üçün vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclərin 10%-dək azalması ilə nəticələnmişdir. Ölkədə tətbiq olunan vergi güzəştləri kənd təsərrüfatında istehsalın artımında mühüm rola sahib olmuşdur: 2001-ci ilə qədər ölkə

üzrə cəmi kənd təsərrüfatı məhsullarının istehsal həcmi 1.3 milyard təşkil edirdisə edirdisə, hal-hazırda bu rəqəm 5 milyard manatdır. Son 15 ildə ölkə iqtisadiyyatında taxıl istehsalı 2 dəfə, meyvə-tərəvəz istehsalı 1,8 dəfə, üzüm istehsalı 1,7 dəfə, şəkər çuğundurunun istehsalı 6 dəfə, süd istehsalı 1,8 dəfə artıb. Vergi siyasəti kənd təsərrüfatının inkişafında kifayət qədər mühüm rola sahibdir.

## 3.3 Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması

Kənd təsərrüfatında məhsulların keyfiyyətinin artması eyni zamanda istehsalçıların daxili və ya xarici bazara çıxış şərtlərinin yaxşılaşdırılmasına görə kənd təsərrüfatının bazar infrastrukturunun inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə ehtiyac vardır. Ölkədə hal-hazırki bazar infrastrukturu iqtisadi fəaliyyətlə məşğul olan istehsalçıların öz biznes fəaliyyətlərini arzuolunan dərəcədə yerinə yetirə bilməklərinə maneə yaradır, bəzən istehsal etdikləri məhsulların satışında bazarda formalaşan vasitəçilərin təklif etdikləri kiçik miqdarda olan məbləğə razılaşmaqlarına səbəb olur. Respublikada topdan və pərakəndə satış şəbəkələrinin düzgün formalaşmaması, inkişafında olan geriləmələr istehsalçı qiymətləri ilə bazarda müəyyənləşən qiymətlər arasında fərqlərin əmələ gəlməsinə şərait yaradır. Bizim ölkədən fərqli olaraq inkişaf etmiş ölkələrdə topdansatış bazarları yüksək əlavə dəyərin formalaşdırılmasına səbəb olur. Eyni zamanda həmin ölkələrdə toptansatış bazararının mövcudluğu tələb və təklifə nəzarət sisteminin həyata keçirilməsi üçün əhəmiyətli rola sahibdir. əlavə olaraq bazar məlumatlarının öyrənilməsi və yığılması istiqamətində topdansatış bazarlarının rolu vardır.

Ölkədə ixrac imkanlarının genişləndirilməsi bazar infrastrukturun inkişafı ilə sıx bağlılıq təşkil edir. Buna görə də kənd təsərrüfatı məhsullarının bazar

infrastrukturunun inkişafına dair olan tədbirlər həmin məhsulların xarici ölkələrə ixracına müsbət təsirini göstərəcək, bu sahəyə olan həvəsin artımına nail olunacaqdır.

Ölkənin bazar infrastrukturunda növbəti illərdə üç prioritet istiqamət üzrə tədbirlər reallaşdırılmışdır.

Kənd təsərrüfatında istehsal olunan və təqdim olunan məhsullar üzrə bazar infrastrukturunun inkişafının sürətləndırılməsi istiqamətində tədbirlərin planlaşdırılması və həyata keçirilməsinin təmini

Kənd təsərrüfatında istehsal olunan və təqdim olunan məhsullar üzrə bazarın tənzimlənməsi funksiyasının inkişaf etdirilməsi ilə əlaqədar tədbirlərin mövcudluğu

Sonuncu prioritet çərçivəsində kənd təsərrüfatı məhsullarının ixracına stimullaşdırıcı tədbirlər sistemi daxildir.

Ümumiyyətlə hal hazırda kənd təsərrüfatinin məhsullarının bazar infrastrukturunun inkişafının bir sıra istiqamətlərdə aparılması zəruri hal hesab oluna bilər. Bunun üçün logistika mərkəzləri qurulmalı və istifadəyə təqdim olunmalıdır. Həmçinin pərakəndə satış şəbəkələrinin sayı artırılmalıdır. Ölkədə baytarlıq-sanitariya tələblərinə cavab verən ət kəsimi məntələri yaradılmalıdır.

Ölkədə taxıl anbarları şəbəkəsinin inkişaf etdirilməsi kənd təsərrüfatı ilə məşğul olan istehsalçıların tələblərinə uyğunlaşaraq onların iqtisadı fəaliyyətinə müsbət təsirini göstərəcəkdir. Daxili va xarici bazara məhsulların çıxarılışı zamanı yükdaşıma xidmətindən istifadə olunduğu üçün onun da in kişafının yaxşılaşdırılması bu sahənin inkişafına səbəb ola biləcək faktorlar kimi göstərilə bilər.

Ölkədə iqtisadi fəaliyyətlə məşğul olan fermerlər potensial ixrac bazarları haqqında məlumatlandırılacaqlar. Bu proses fermerlərə lazimi informasiyaları ötürmək üçün seminar və təlimlər təşkil ediləcəkdir, müxtəlif bazarlar üçün uyğun məlumat kitabçaları hazırlanacaqdır.

## 3.4 Azərbaycan kənd təsərrüfatında gələcək üçün nəzərdə tutulan strateji məqsədlər

Azərbaycan Respublikası iqtisadiyyatda kənd təsərrüfatı sektorunun yüksək inkişafına, dayanıqlı rəqabət qabiliyyətinə sahib olmasını məqsəd, hədəf olaraq müəyləşdirmişdir. Aşağıda ölkənin strateji məqsədləri sadalanmışdır;

- kənd təsərrüfatı məhsullarının daxili və xarici bazara çıxışını asanlaşdırılması, aqrar sahədə elmi biliklərin inkişaf etdirilməsini təmin edilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı sistemini yaradılması;
- ölkənin daxili bazarında xaricdən idxal olunan ölkə daxilində əhalinin zəruri tələbat məhsullarını əvəzləyən malların istehsalının həyata keçirilməsinin təmin edilməsi, ərzaq təhlükəsizliyinin artırılması;
- regionun kənd ərazilərində yaşayan əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına səbəb olan məşğulluğun artırılması, kənd yerlərində sosial rifahin gücləndirilməsinə nail olunması;
- müasir texnoloji avadanlıqların istifadəsi ilə su və torpaqdan daha səmərəli istifadənin təmin olunması, iqlim dəyişiklərinə uyğun müvafiq kənd təsərrufatı strategiyalarından istifadə olunması, ətraf mühitin müdafiəsinin təşkil olunması;
- 2020-ci ilədək iqtisadiyyatda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün bir sıra hədəf indikatorları nəzərdə tutulmuşdur. Onlar aşağıda qeyd olunmuşdur;
- kənd təsərrüfatı məhsullarının istehsalında ət məhsullarının istehsalının 20%, süd istehsalının 30% artırılması;
- pambığın istehsalının və eləcə də emalının həcminin azı 5 dəfə artması;
- barama istehsalında isə azı 1000 dəfə artımın olması;

- hər bir regionda uyğun olaraq 25 kiçik və orta sahibkarlarlıq subyektlərinin yaranması;
- inzibati rayonlar üzrə minimum 100 investisiya layihəsinin hazırlanıb təqdim edilməsi;
- kənd təsərrüfat üçün yararlı olub lakin istifadə olunmayan torpaqların əkin dövriyəsinə qaytarılması ilə ümumi əkin sahələrinin həcminin 5% artması;
- kənd təsərrüfatı məhsullarının istehsalçılarının əkin üçün sertifikatlı toxumlarla təmin olunmasının, tinglərdən istifadənin 90%-ə qaldırılması;
- ölkənin iri şəhərlərində və eləcə də paytaxtda 5 yaşıl marketin 50 fermer mağazasının yaradılması;
- kənd təsərrüafatı mallarının xarici ölkələrə ixracı üzrə 200-dən çox fermerin ixtisaslaşması.

# Nəticə

Azərbaycan Respublikasında iqtisadi vəziyyət davamlı sürətdə inkişaf etməkdədir. Bu inkişafda neft sektoru ilə yanaşı qeyri-neft sektorunun da əhəmiyyəti danılmazdır. Son illərdə qeyri-neft sektoruna diqqətin ayrılması bu sahədə iqtisadi vəziyyətin davamlı sürətdə artımına səbəb olmuşdur. Ölkənin yalnız neft sektoru ilə ixtisaslaşması dövlətin iqtisadi hədəflərinə uyğunlaşmadığını, qeyri-neft sektoruna xüsusi tələbatın olduğunu vurğulaya bilərik. Azərbaycan Respublikası iqtisadiyyatının qeyri-neft sektorunda kənd təsərrüfatının nə dərəcədə əhəmiyyətli olduğu diplom işinin əsas mahiyyətini təşkil etmişdir. Müxtəlif illərdə respublikada kənd təsərrüfatı məhsullarının həcminin iqtisadi göstəriciləri araşdırılmış, statistik məlumatlara istinad edilmişdir ki, buradan da ölkə iqtisadiyyatında kənd təsərrüfatının rolunun getdikcə genişlənməsi aşkar şəkildə görünür. Məlumdur ki, ökənin xüsusən bölgələrində kənd təsərrüfatı istehsalı geniş yayılmışdır. Regional olaraq müxtəlif ərazilərdə müvafiq olaraq hansı kənd təsərrüfatı məhsullarının istehsalının həyata keçirilməsi imkanının olması araşdırılmalı, eyni zamanda prosesin reallaşdırılmasına nəzarət edilməlidir ki, bu sahədə nəzərdə tutulan məqsədlərə nail olunsun, maneələrə rastlanılmasın. Müxtəlif illərdə kənd təsərrüfatının ÜDM-də payı bir birindən fərqlənir, son illərdə bu fərqlər daha çox diqqəti cəlb edir. Qeyri-neft sektorunun kənd təsərrüfatı sahəsində inkişafında bu sahədə ölkə Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin böyük rolu vardır. Ölkə rəhbəri tərəfindən kənd təsərrüfatı ilə əlaqədar bəzi islahatlar qəbul edilmişdir ki, bu da özünü istər istehsal prosesində istərsə də satış və ya ixrac fəaliyyətində göstərmişdir. Kənd tərərüfatının inkişafında investiyaların da əhəmiyyəti böyükdür. Bu sahəyə investorların cəlbi ölkənin başlıca vəzifələrindəndir. Son illər kənd təsərrüfatı məhsullarının istehsalında yeni texnoloji avadanlıqların tətbiqi geniş yayılmışdır. İnnovativ tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə sahibdir. Ölkəmizdə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan bir sıra şirkətlər vardır ki, onların müasir standartlara cavab verən yeni avadanlıqlarla tachizatı hal-hazırda

bu sahənin inkişafına təkan verən amillərdəndir və eyni zamanda müəssisələrin iş fəaliyyətini asanlaşdırmaq, əhalinin əmək ehtiyatlarından daha səmərəli istifadə edilməsinə şərait yaradır. Dövlət 2020-ci il üçün 'Strateji Yol Xəritəsi' hazırlamış və kənd təsərrüfatı sahəsində strateji məqsədlər müəyyənləşdirmişdir. Bu sektorun inkişafı üçün ölkəmiz müsbət iqtisadi addımlar ataraq qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının rolunu artırmasına nail olmuşdur, eyni zamanda ÜDM-də kənd təsərrüfatının payının çoxalması davamlı iqtisadi siyasətinin nəticəsidir.

Qeyri-neft sektorunda kənd təsərrüfatı sahəsinin davamlı şəkildə inkişaf etdirilməsi üçün potensial sahələr araşdırılmalı, daxili tələbatın qarşılanması ilə yanaşı ixrac qabiliyyətli məhsulların istehsalına diqqət edilməli, rəqabətə davamlı keyfiyyətli məhsulların istehsal həcmi artırılmalıdır.

# Ədəbiyyat siyahısı

***Kitablar:***


1. «Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncami. Bakı 11 aprel 2017;
2. «Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 4 aprel 2017;
3. İbrahimov İ. "Aqrar iqtisadiyyatın aktual problemləri" . Bakı 2002,
4. Salahov S. "Aqrar sahənin dövlət tənzimlənməsi probleməri". Bakı 2004
5. Zvi Lerman, "Agriculture in Transition Economies: From Common Heritage to Divergence", Agricultural Economics, 26, 2001
6. Peter H. Agricultural workers and their contribution to sustainable agriculture and rural development. FAO, 2005;


***Internet resursları:***


1. http://www.azerbaijan.az/_Economy/_Agriculture/_agriculture_a.html
2. http://www.stat.gov.az
3. http://www.ekinchi.az;
4. http://www.agro.gov.az
5. http://iqtisadiislahat.org
6. https://osmanemin.wordpress.com/2017/05/07/dunyanin-kənd-təsərrufatinin-cografiyasi/
7. http://senaye.gov.az/az/normative_programs/food_safety